YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
20 mart 2026-cı il, cümə
№ 052 (7119)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!

# Azad Qarabağda Novruz tonqalları...




## İlham Əliyev: Bu, böyük xoşbəxtlikdir!

Bax səh. 2

## "Süfrələrinizə bol ruzi və bərəkət arzulayıram"

### Prezidentin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbriki

Bax səh. 3

## Növbəti çağırış!

Yaxın Şərq regionunda, xüsusilə İranda baş verən hadisələr beynəlxalq ictimaiyyəti ciddi narahat edir. Çünki mövcud vəziyyət bütün dünya üçün riskləri artırır. Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində ərəb və digər müsəlman ölkələrinin xarici işlər nazirlərinin görüşü də regionda hərbi təhdidlərlə bağlı olub. Görüşdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da iştirak edib. Münaqişənin genişlənməsi qonşu ölkələr üçün təhlükələri istisna etmir. Bu yaxınlarda İran ərazisindən Naxçıvan Muxtar Respublikasında mülki obyektlərə dron hücumunun edilməsi qonşu ölkələrin təhdidlərdən sığortalanmadığını göstərdi. Azərbaycan proseslərlə bağlı müxtəlif ölkələrlə, o cümlədən region dövlətlərilə sıx təmasdadır.

Qeyd edək ki, C.Bayramov səfər çərçivəsində bir sıra həmkarları ilə ikitərəfli görüşlər keçirib. Türkiyənin XİN başçısı Hakan Fidanla görüşdə tərəflər regionda mövcud təhlükəsizlik vəziyyəti və son inkişaflar ətrafında fikir mübadiləsi aparıblar. Nazirlər regional sabitliyin qorunmasının, gərginliyin artmasının qarşısının alınmasının və beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmətin vacibliyini vurğulayıblar.

Tərəflər Azərbaycan-Türkiyə müttəfiqliyinin regionda sülh və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığını qeyd edərək, mövcud çağırışlara qarşı birgə və əlaqələndirilmiş fəaliyyətin əhəmiyyətini diqqətə çatdırıblar.Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov Pakistan İslam...

Bax səh. 3

## Çindən Azərbaycana böyükhəcmli "yaşıl sərmayə"lər



Bax səh. 4

## Orta aylıq əməkhaqqı artıb

Bax səh. 4

## 79 gün qaldı...

Bax səh. 5

## Üçtərəfli danışıqlar prosesi dayandırılıb?

Bax səh. 7

## Qarabağ Zəfərimiz dünyaya səs saldı...

2020-ci ilin 27-i sentyabrından etibarən 44 gün ərazindəki qısa dövrdə həm döyüş meydanında, həm diplomatiya müstəvisində, həm də informasiya məkanında Azərbaycanı qələbəyə aparan bir tarix yazıldı. 44 günlük Vətən müharibəsi ölkəmizin gücünü, xalqımızın iradəsini və dövlətimizin qətiyyətini bütün dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uzun illər işğal altında olan torpaqlarımızı azad edərək tarixi ədaləti bərpa etdi. Bu müharibə təkcə hərbi qələbə ilə deyil, həm də həmrəyliyin, vətənpərvərliyin və strateji düşüncənin təntənəsi kimi yadda qaldı. Azərbaycan əsgəri yüksək döyüş ruhu və peşəkarlıq nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Qısa müddət ərzində əldə olunan bu uğur müasir hərb tarixində nadir nümunələrdən biri hesab olunur.

Lakin Ermənistanın müharibə dövründə və ondan əvvəl törətdiyi cinayətlər beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qiymətləndirilməlidir. Mülki əhalinin hədəfə alınması, yaşayış məntəqələrinin raket atəşinə tutulması, şəhər və kəndlərin dağıdılması insanlıq əleyhinə cinayətlərin bariz nümunəsidir. Xüsusilə, Gəncəyə raket hücumları zamanı dinc sakinlərin həyatını itirməsi dünya ictimaiyyətində ciddi rezonans doğurdu.

Eyni zamanda, Ermənistan tərəfindən işğal dövründə Azərbaycan ərazilərində həyata keçirilən vandalizm aktları, tarixi və dini abidələrin dağıdılması, təbii sərvətlərin talan edilməsi də beynəlxalq hüquqa zidd əməllər kimi...

Bax səh. 5



## Eskalasiyaya eskalasiya ilə cavab veriləcək!

Bax səh. 6



## ABŞ təmkinli uçot siyasətinə keçdi

Bax səh. 7

# Azad Qarabağda Novruz tonqalları...

## İlham Əliyev: Bu, böyük xoşbəxtlikdir!

Bu günlərdə ikiqat xoşbəxtlik yaşayırıq. Müqəddəs Ramazan ayında həm də xalqımız üçün çox əziz olan Novruz bayramını qeyd edirik. Yurdumuza bahar gəlir. Qarlı-şaxtalı qış öz yerini çiçək ətirli, isti nəfəsli bahara verir. Ana təbiət oyanır. Torpaq altından bənövşənin boy göstərməsi, ağacların çiçək açması, çəmənlərin göyərməsi, quşların cəh-cəh vurub nəğmələr oxuması insanın qəlbini sonsuz sevinc və ümid hissi ilə doldurur.

Artıq baharın gəlişini simvolizə edən dörd çərşənbəni yola salmışıq. Ölkəmizdə dövlət səviyyəsində qeyd edilən Novruz bayramına da lazımi hazırlıqlar görülüb - hər evdən Novruzun rəmzləri olan ləziz bişmişlərin adamı iştaha gətirən qoxusu gəlir. Novruz tonqallarına hazırlıqlar da öz yerində.



## Azərbaycan və Özbəkistan prezidentləri Yaxın Şərqdəki gərginliyin siyasi-diplomatik yola həllini vacib sayırlar

Martın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev arasında telefon danışığı olub.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Şavkat Mirziyoyev dövlətimizin başçısını və qardaş Azərbaycan xalqını qarşıdan gələn müqəddəs Ramazan və Novruz bayramları münasibətilə təbrik edib, xalqımıza ən xoş arzularını çatdırıb.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, öz növbəsində Şavkat Mirziyoyevi və qardaş özbək xalqını bayramlar münasibətilə təbrik edib, Özbəkistana gələcəkdə də firavanlıq və rifah arzulayıb.

Telefon söhbəti zamanı, həmçinin Azərbaycan-Özbəkistan strateji müttəfiqlik münasibətlərinə toxunulub, əlaqələrin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluq bildirilib.

Azərbaycan və Özbəkistan prezidentləri Yaxın Şərqdəki mövcud vəziyyətdən narahatlıqlarını ifadə edib, gərginliyin siyasi-diplomatik yollarla həllinin vacibliyini vurğulayıblar.

Telefon danışığı ənsasında, həmçinin qarşılıqlı maraq doğuran məsələlərə və gələcək təmaslara dair fikir mübadiləsi aparılıb.

## Azad ərazilərdə ilk Novruz tonqalı Şuşada alovlandırılıb

Şanlı Zəfərimizlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra ölkəmizdə Novruz bayramı ilə əlaqədar gözəl ənənə yaranıb. Belə ki, Prezident İlham Əliyev ailə üzvləri ilə birlikdə işğaldan azad olunmuş ərazilərə səfər edərək "Böyük Qayıdış" proqramı çərçivəsində doğma yurd yerlərinə qayıdan soydaşlarımızla birlikdə bayram tonqalları qalayır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva builki Novruz ərəfəsində martın 18-də Xocavənd rayonunun Xanoba kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış oldular. Dövlətimizin başçısı Xanoba kəndində sakinlərlə birlikdə Novruz tonqalını alovlandırıb. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kənd sakinləri ilə söhbət ediblər.

Tonqalların yandırılması Novruzun geniş yayılmış adətlərindən biridir. Ta qədimdən insanlar tonqal qalamaqla və onun üzərindən atlanmaqla azar-bezarlarını odda yandırmaq inanclarını ifadə ediblər. Əcdadlarımızın təsəvvüründə od, tonqal, eyni zamanda, işığı, hərarəti, Günəşi simvolizə edib. Çillədən-qışdan çıxmaq üçün tonqal, od yandırılması əslində dolayısı ilə həm də Günəşin-yazın çağırılması anlamında qəbul olunur.

Azərbaycan xalqının, yurd yerlərinə qayıdan keçmiş qaçqın və məcburi köçkün soydaşlarımızın Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə birlikdə azad Qarabağda bayram tonqalı qalamağa və onun ətrafında şənlənməyə böyük mənəvi haqqı var. Bu, həm də rəmzi məna daşıyır. Otuz il ərzində şər qüvvələr torpaqlarımızı işğal altında saxlamışlar və burada ağlagəlməz vəhşiliklər törətmişlər.

Biz otuz il ərzində təcavüzkar dövlət olan Ermənistanın işğalı səbəbindən Azərbaycanın ərazisinin 20 faizini təşkil edən regionlarımızda bayram tonqalları alovlandıra bilmirdik. Xalqımızın qəlbində mənfur düşmənin nəzarətində qalan torpaqlarımıza sonsuz bağlılıq var idi. Xəyallarımız, ruhumuz hər an bizləri o yerlərə çəkib aparırdı. Otuz il ərzində xalqımıza, dövlətimizə, Prezidentimizə müxtəlif dairələrdən böyük təzyiqlər göstərildi. Bizi işğalla, torpaqlarımızın yad əllərdə olması faktı ilə barışmağa sövq etməyə çalışırdılar. Barışmadıq, dövlət və xalq olaraq təzyiqlərə baş əymədik, yurd yerlərimizə qayıdacağımıza inandıq. Prezident İlham Əliyevin işğal faktına gec-tez, istənilən yolla son qoyulacağına əminlik ifadə etməsi bu inamı möhkəmləndirirdi.

Müqəddəs arzumuza 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində əldə olunan qələbələr sayəsində çatdıq. İndi Azərbaycanın bütün torpaqları azaddır, bütün ərazilərimizdə aylı-ulduzlu bayrağımız əzəmətlə dalğalanır.

Eyni zamanda, artıq bayram tonqalları da ölkəmizin bütün regionlarında alovlandırılır. İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə ilk Novruz tonqalını Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva 2021-ci il 20 mart tarixində Şuşada Cıdır düzündə alovlandırıblar. İşğaldan azad olunmuş ərazilərdə ilk Novruz tonqalının Şuşada alovlandırılması sıradan bir hadisə deyildi. Azərbaycan xalqının bu qədim şəhərə böyük mənəvi bağlılığı var. Uca dağlar qoynunda qərar tutan Şuşa tarixi Azərbaycan şəhəridir, onun əsası Pənahəli xan tərəfindən qoyulub. 28 il əsarətdə qalan şəhər mənfur düşmən tərəfindən dağıntılara məruz qalıb. Düşmən Şuşanın tarixi simasını pozmağa, şəhərin simasından azərbaycanlı izlərini silməyə, onu erməniləşdirməyə çalışıb. Ancaq bu mümkün olmayıb. Şuşa dağıntılara məruz qalsa da, milli ruhunu qoruyub. Prezident İlham Əliyev Şuşada bayram tonqalını alovlandırdıqdan sonra xalqa ünvanladığı müraciətndə şəhərin işğaldan azad edilməsini tarixi hadisə kimi dəyərləndirərək vurğulayıb: "Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik".

Şuşadan sonra işğaldan azad edilmiş ərazilərdə Novruz tonqalları 2022-ci ildə Suqovuşanda, 2023-cü ildə Talışda, 2024-cü ildə isə Xankəndində alovlandırılıb. Xankəndi işğal illərində separatism yuvasına çevrilmişdi. Azərbaycan əleyhinə bəyanatlar burada verilir, məkrli müharibə cinayətlərinin planları burada hazırlanırdı. Separatçılar 44 günlük müharibənin dərslərindən lazımi nəticələr çıxartmadılar və Xankəndidə çirkin fəaliyyətlərini davam etdirdilər. Buna görə də Azərbaycan 2023-cü il sentyabrın 19-20-də lokal xarakterli antiterror tədbirləri keçirərək Qarabağda separatizmin kökünü birdəfəlik kəsdi. Xankəndidə və işğaldan azad olunmuş bütün ərazilərimizdə bayrağımız əbədi dalğalanacaq. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2025-ci ilin Novruz tonqalını yeni ünvanda - Ağdərənin Həsənriz kəndində alovlandırdılar. Bu, postmüharibə mərhələsində işğaldan azad olunmuş ərazilərimizdə alovlandırlan sayca beşinci tonqal idi.

Prezident İlham Əliyevin Xocavənd rayonunun Xanoba kəndində sakinlərlə görüşdə bildirdiyi kimi, Silahlı Qüvvələrimiz həm 2020-ci ildə, həm 2023-cü ildə böyük qəhrəmanlıq göstərmişdir. Məhz Ordumuzun şücaəti sayəsində Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini hərbi-siyasi yolla tam təmin etməyə nail oldu.

Şanlı zəfərlərimiz sayəsində artıq Qarabağa bu yerlərin əsl sahibləri qayıdırlar. İşğaldan azad olunmuş ərazilər postmüharibə dövründə sözün əsl mənasında quruculuq-abadlıq meydanına çevrilib. Dövlətin və yenilməz Azərbaycan xalqının gücü ilə göz önündə yeni bir Qarabağ formalaşmaqdadır. Sakinlərlə görüşdə "İndi qurub-yaratmaq dövrüdür" deyən Prezident İlham Əliyev vurğulayıb: "...Ermənistan buranı viran qoymuşdu. Yəni bütün kənd, qəsəbə, şəhər - hamısını dağıtmışdı. Burada bir neçə daxma tipli ev qalmışdı, amma indi baxın. Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı nə gündə idi, yerlə-yeksan etmişdilər. Xaricdən gələn erməniləri Laçında, Kəlbəcərdə qanunsuz məskunlaşdırmışdılar, ora da bərbad vəziyyətdə idi. Yəni hamısını biz yenidən qururuq. Cəmi 5-6 il ərzində Qarabağda və Şərqi Zəngəzurda 80 mindən çox insan yaşayır, çalışır, təhsil alır. Demək olar ki, hər ay, bəlkə də hər həftə keçmiş köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz doğma diyarlarına qayıdırlar".

Postmüharibə dövründə azad ərazilərdə bayram tonqallarının qalanması da tarixi torpaqlarımızın yeni dönəminin xoş nişanəsidir. Azad Qarabağda Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə sayca altıncı tonqal Xocavənd rayonunun Xanoba kəndində qalanıb.

## Bayram sevinci yaşanan daha bir ünvan - Xocavənd rayonunun Xanoba kəndi

Beləliklə də, işğaldan azad olunmuş ərazilərdə Novruz sevinci yaşanan növbəti ünvan Xocavənd rayonunun Xanoba kəndi olub.

Xanoba kəndi Xocavənd rayonun eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə yerləşir. Bura Qarabağ xanlarına məxsus olmuş yaşayış məntəqəsidir. İşğaldan əvvəl kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi və rabitə şöbəsi fəaliyyət göstərib. Kənd Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Kənddə mövcud fərdi evlərin sayı 153-dür. Onlardan da 21-i yararsız, 132-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 26-sı artıq istismara hazırdır. Bu ilin sonunadək daha 106 ev hazır olacaq.

Bir neçə gün əvvəl ilkin mərhələdə kəndə 25 ailə - 114 nəfər qayıdıb. Oktyabradək daha 107 ailənin köçürülməsi planlaşdırılır. Ümumilikdə ötən ilin oktyabrından Xocavənd rayonunun 6 yaşayış məntəqəsinə 1818 nəfər - 441 ailə qayıdıb.

Xanoba kəndində sosial məsələlərin həlli istiqamətində bir sıra işlər görülüb. Kənddəki mövcud 2 transformator məntəqəsi, elektrik və qaz xətləri bərpa olunub, eyni zamanda, yeni elektrik, qaz və optik xətlər çəkilib, subartezian quyusunda və nasos stansiyasında təmir işləri aparılıb. Prezident İlham Əliyev kənd sakinləri ilə görüşdə Qarabağda birlikdə bayram tonqalı qalamağı böyük xoşbəxtlik kimi səciyyələndirib. "Artıq iki ildir ki, bu diyar işğalçılardan azad olunub, Xanoba kəndi 2023-cü ilin sentyabr ayında işğaldan azad edilmişdir və bundan sonra artıq bərpa işləri başlanmışdır, evlər yenidən tikildi-quruldu, bütün şərait yaradıldı. Yəni bu şanlı Zəfərimiz artıq neçə ildir bizim qürur mənbəyimizdir. Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir", - deyə dövlətimizin başçısı vurğulayıb.








## İndiki nəsillərə müqəddəs ərməğan

Prezident İlham Əliyev öz ənənəsinə sadiq qalaraq bu il də Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb. Dövlətimizin başçısı Novruz bayramı münasibətilə xalqımızı səmimi-qəlbdən təbrik edib, hər kəsə cansağlığı, səadət və işlərindədə nailiyyətlər diləyib. Bildirdiyi kimi, Azərbaycan torpağında çox qədim köklərə malik Novruz bayramı ulu əcdadlarımızdan indiki nəsillərə müqəddəs ərməğanıdır. "Bu əziz bayram uzun əsrlərdən bəri milli təfəkkür tərzimizin ayrılmaz tərkib hissəsi olub, mədəni dəyərlərimizin təşəkkülünə xüsusi töhfə vermişdir. Novruz mərasimlərində xalqımızın nikbin dünyagörüşü, təbiətə sonsuz sevgisi, yüksək əxlaqi meyarları və gələcəklə bağlı ən işıqlı arzuları bütün zənginliyi ilə təcəssümünü tapır", - deyə dövlətimizin başçısı vurğulayıb.

İndiki qloballaşma şəraitində xalqlar təhlükəli assimilasiyalarla üz-üzədirlər. İnsanlarıln milli-dini kimliklərinə təhdidlər artıb. Belə şəraitdə xalqların mənəvi bütövlüyünün təmin olunmasında müstəsna rola malik milli-mənəvi dəyərlərin qorunmasının aktuallığı daha da artıb. Təbrikdə vurğulandığı kimi, Novruz ənənələrini yad təsirlərdən qoruyaraq zamanın sınaqlarından uğurla çıxarması və dövrümüzədək yaşatması Azərbaycan xalqının öz şərəfli tarixi qarşısında xidmətləridəndir. Ölkəmizdə Novruzun el bayramı kimi yüksək səviyyədə qeyd ollunmasından məmnunluğunu bildirən dövlətimizin başçısı vurğulayıb: "Ali bəşəri keyfiyyətlər və dərin mənəviyyat xəzinəsi olaraq dünya mədəni irsinin qiymətli nümunələri sırasında yer alan Novruz bayramı bu gün də Vətənimizin hər bir guşəsində yüzillərin yaddaşında iz qoymuş adətlərə uyğun el şənlikləri ilə qarşılanır.

Əminəm ki, yaz fəslinin yeniləşdirici ab-havası gələcəyimizi arzularımıza uyğun qurmaq şövqümüzü daha da artıracaq və biz əzmimizlə azadlığına qovuşdurduğumuz əzəli yurd yerlərimizi aydın səma altında gözəlliklər məskəninə çevirəcəyik".

Prezident İlham Əliyev həmçinin sosial media hesablarında Novruz bayramı ilə bağlı video paylaşıb. Paylaşımda deyilir: "Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir".

***Mübariz ABDULLAYEV***



# "Süfrələrinizə bol ruzi və bərəkət arzulayıram"

## Prezidentin Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbriki

Hörmətli həmvətənlər!

Sizi mübarək Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Mənəvi-əxlaqi kamilliyi və nəcib niyyətləri özündə təcəssüm etdirən, insanların ruhunu və təfəkkürünü saflaşdıran on bir ayın sultanı Ramazan artıq başa çatır. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu bu mübarək ayda müsəlmanlar Allah qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanır, yardımlaşma, şəfqət və mərhəmət kimi xeyirxah əməllərin sevincini yaşayırlar.

Azərbaycan yüzillərdir ki, ayrı-ayrı etiqad və inancların əmin-amanlıq şəraitində dinc yanaşı mövcud olduğu nadir məkanlardandır. Bəşəriyyəti daim sülhə, humanizmə və qardaşlığa dəvət edən İslam dini tarixən cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılmasında, qarşılıqlı hörmət və etimada əsaslanan dözümlülük mühitinin və milli-mənəvi həmrəyliyin bərqərar olmasında müstəsna rol oynamışdır.

Əziz bacı və qardaşlarım!

Ramazan ayı hər il xalqımızın birlik və bərabərliyini daha da gücləndirir, xeyirxahlığın və savab əməllərin təntənəsinə çevrilir. Bu mübarək günlərdə dövlətimizin əmin-amanlığı, firavanlığı və tərəqqisi naminə etdiyiniz dualara qoşulur, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin xatirəsini ehtiramla yad edirəm.

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

Allah orucunuzu və dualarınızı qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 19 mart 2026-cı il**

# Növbəti çağırış!

## Naxçıvana dron hücumu tezliklə araşdırılmalıdır

Yaxın Şərq regionunda, xüsusilə İranda baş verən hadisələr beynəlxalq ictimaiyyəti ciddi narahat edir. Çünki mövcud vəziyyət bütün dünya üçün riskləri artırır. Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində ərəb və digər müsəlman ölkələrinin xarici işlər nazirlərinin görüşü də regionda hərbi təhdidlərlə bağlı olub. Görüşdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da iştirak edib. Münaqişənin genişlənməsi qonşu ölkələr üçün təhlükələri istisna etmir. Bu yaxınlarda İran ərazisindən Naxçıvan Muxtar Respublikasında mülki obyektlərə dron hücumunun edilməsi qonşu ölkələrin təhdidlərdən sığortalanmadığını göstərdi. Azərbaycan proseslərlə bağlı müxtəlif ölkələrlə, o cümlədən region dövlətləri ilə sıx təmasdadır.

## Ceyhun Bayramov Türkiyə və Pakistan XİN başçıları ilə görüşüb

Qeyd edək ki, C.Bayramov səfər çərçivəsində bir sıra həmkarları ilə ikitərəfli görüşlər keçirib. Türkiyənin XİN başçısı Hakan Fidanla görüşdə tərəflər regionda mövcud təhlükəsizlik vəziyyəti və son inkişaflar ətrafında fikir mübadiləsi aparıblar. Nazirlər regional sabitliyin qorunmasının, gərginliyin artmasının qarşısının alınmasının və beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmətin vacibliyini vurğulayıblar.

Tərəflər Azərbaycan-Türkiyə müttəfiqliyinin regionda sülh və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynadığını qeyd edərək, mövcud çağırışlara qarşı birgə və əlaqələndirilmiş fəaliyyətin əhəmiyyətini diqqətə çatdırıblar. Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov Pakistan İslam Respublikasının Baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd Ishaq Dar ilə də görüşüb. Nazirlər regional təhlükəsizlik vəziyyəti və son geosiyasi inkişaflar barədə fikir mübadiləsi aparıblar, Yaxın Şərqdə gərginliyin azaldılmasının, sabitliyin təmin olunmasının vacibliyini vurğulayıblar.

Görüşdə həmçinin ikitərəfli əməkdaşlığın genişləndirilməsi, regional və beynəlxalq platformalarda əlaqələndirilmiş fəaliyyətin gücləndirilməsi məsələləri müzakirə olunub.Tərəflər qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.



## Ər-Riyadda XİN başçılarının görüşündə...

Ər-Riyadda XİN başçılarının görüşündə çıxışı zamanı isə Ceyhun Bayramov İran ərazisindən Naxçıvandakı mülki infrastrukturlara dron hücumunu gündəmə gətirib. O qeyd edib ki, Azərbaycan İranın Naxçıvana pilotsuz uçuş aparatı (PUA) zərbəsi ilə bağlı insidentin hərtərəfli araşdırılması barədə verdiyi təminatları yerinə yetirəcəyinə və gələcəkdə bu cür halların qarşısının alınması üçün zəruri tədbirlər görəcəyinə ümid edir. Nazir görüş iştirakçılarına xatırladıb ki, martın 5-də İran ərazisindən uçan PUA-lar Azərbaycanın Naxçıvan Muxtar Respublikasının infrastrukturuna zərbələr endirib. Nəticədə dörd mülki şəxs xəsarət alıb və Naxçıvan Beynəlxalq Hava Limanı da daxil olmaqla kritik infrastruktura əhəmiyyətli ziyan dəyib.

Onun sözlərinə görə, Azərbaycan hadisəyə operativ və qətiyyətli reaksiya verib, öz suverenliyini, ərazi bütövlüyünü və vətəndaşlarının təhlükəsizliyini bütün qanuni vasitələrlə qorumağa sadiqliyini təsdiqləyib: "Azərbaycan İran tərəfinin hadisənin hərtərəfli araşdırılmasına dair verdiyi zəmanətləri yerinə yetirəcəyini və gələcəkdə bu cür halların qarşısının alınması üçün zəruri tədbirlərin görüləcəyini gözləyir".

Xatırladaq ki, martın 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Əraqçi arasında telefon danışığında da bu məsələ diqqət mərkəzində olmuşdu. Telefon danışığı zamanı regional vəziyyət və ikitərəfli əlaqələr müzakirə olunub.Ceyhun Bayramov İran ərazisindən Naxçıvan Muxtar Respublikasına dron hücumlarından sonra verilmiş vədə uyğun olaraq, İran tərəfindən araşdırmaların tamamlanmasının vacibliyini diqqətə çatdırıb.Ümumilikdə, aparılan müharibə zamanı mülki obyektlərin hədəf alınmamasının zəruriliyi, bölgədə hərbi eskalasiyaya qısa müddət ərzində son qoyulmasının və mövcud çətinliklərin danışıqlar yolu ilə həll edilməsinin tərəfdarı olduğumuz vurğulanıb.

Məlumdur ki, İranın Prezidenti Azərbaycanın dövlət başçısı ilə telefon danışığında Naxçıvana dron hücumunun ölkəsi tərəfindən törədilmədiyini bildirmişdi. Eyni mövqeni İranın XİN başçısı və Silahlı Qüvvələrin komandanlığı da ifadə etmişdi. Belə olan təqdirdə, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, insident ciddi şəkildə araşdırılmalı, ölkəmizə qarşı bu təxribatı törədənlər tapılıb cəzalandırılmalıdır. Azərbaycan rəsmi Tehrandan bu addımın atılmasını gözləyir.



## Bakı sülh və təhlükəsizliyin tərəfdarıdır

Nəzərə alaq ki, rəsmi Bakı regional hərbi eskalasiyanın əleyhinədir. Bununla bağlı Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib ki, bölgədə və qlobal səviyyədə təhlükəsizlik və sabitlik üçün ciddi təhdid yaradan hərbi eskalasiya dərin narahatlıq doğurur. "Qəti şəkildə, bütün tərəfləri maksimum təmkin nümayiş etdirməyə, gərginliyi daha da artıracaq hərəkətlərdən çəkinməyə və danışıqlar masasına qayıtmağa çağırırıq. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış norma və prinsiplərinə uyğun olaraq bütün dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə hörmət edilməsinin vacibliyini vurğulayırıq", - deyə bəyanatda vurğulanıb.

Göründüyü kimi, ölkəmiz bu münaqişədə tərəf tutmur, əksinə, münaqişə tərəflərini problemləri danışıqlar yolu ilə həll etməyə çağırır.

Beləliklə, ölkəmizin mövqeyi qarşılıqlı anlaşma və mehriban qonşuluq, humanizm prinsiplərinə əsaslanır. Azərbaycanın xarici siyasəti regionda sülhün və təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Gərginliyin davam etdiyi hazırkı şəraitdə də dövlətimiz bu mövqeyini həyata keçirməkdir.

*Nardar BAYRAMLI*

# Çindən Azərbaycana böyükhəcmli “yaşıl sərmayə”lər

## “PowerChina Resources Ltd” yeni investisiya layihələrini nəzərdən keçirir

İqtisadiyyat naziri Mikayıl Cabbarov “PowerChina Resources Ltd” şirkətinin icraçı vitse-prezidenti Hi Şiyou ilə görüşüb. Görüşdə ölkəmizdə innovasiya quruculuğu istiqamətində aparılan siyasətin mühüm əhəmiyyəti, o cümlədən investorlar üçün yaradılmış əlverişli biznes mühitinin xarici sərmayəçilərin fəaliyyətində təşviqedici rolu diqqətə çatdırılıb. İqtisadiyyat naziri vurğulayıb ki, sağlam sərmayə iqlimi şərti Çinin innovasiyayönümlü investisiyalarının ölkəmizdə birgə icrası üçün geniş imkanlar yaradır.

Energetika naziri Pərviz Şahbazov da “PowerChina Resources Ltd” şirkətinin icraçı vitse-prezidenti ilə görüşüb. Görüşdə 160 MVt gücündə Günəş elektrik stansiyası, 2 QVt gücündə dənizdə külək enerjisi layihələrinin icrası, eləcə də yeni investisiya imkanları ilə bağlı məsələlər müzakirə edilib. Həmçinin hər iki ölkənin birgə təmsilçiliyi ilə icra edilən digər günəş enerjisi layihələrinin ölkəmizin bərpaolunan enerji potensialının artmasına verdiyi töhfələr və “yaşıl enerji”nin şəbəkəyə inteqrasiyasının imkanlar nəzərdən keçirilib.





**Qobustan Günəş Elektrik Stansiyası həm də ekoloji niyyətdir**

Çin “yaşıl enerji” və “ağıllı texnologiyaların” transformasiyası sahəsində həyata keçirilən layihələrdə Azərbaycanın ən yaxın tərəfdaşlarından birinə çevrilməkdədir. Ötən il iki dövlət arasında Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması iqtisadi sahədə geniş investisiya partnyorluğuna möhkəm hüquqi baza yaradıb. İki ölkənin energetika strukturlarının imza atdığı İnvestisiya Müqaviləsinə əsasən, Bakı ətrafında 100 MVt gücündə Qobustan Günəş Elektrik Stansiyası layihəsində yer alacaq Çin şirkətləri bu ərazidə “yaşıl texnologiyaları”n qurulması və enerji tədarükünü təmin edəcək. Layihənin növbəti mərhələsində şirkətlə elektrik enerjisinin alqı-satqı, ötürücü şəbəkəyə qoşulma və torpaq icarə müqavilələri imzalanacaq. 2026-cı ildə istismara verilməsi nəzərdə tutulan stansiyada hər il təxminən 180 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 39 milyon kubmetr həcmində təbii qaza qənaət etməklə yanaşı, atmosferə atılan karbon emissiyalarını 86 min ton azaltmağa imkan verəcək.

**“SOCAR Green” və “PowerChina”nın Hacıqabul layihəsi**

Birgə fəaliyyət çərçivəsində ən mühüm layihələrindən biri Hacıqabul rayonunda Günəş elektrik stansiyasının inşasıdır. 160 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair imzalanmış İcra müqaviləsinə əsasən, stansiyanın 2028-ci ildə

Azərbaycanın əlverişli coğrafi mövqeyi, iqtisadi və logistika imkanları, “yaşıl enerji” siyasətinin yürüdülməsində qətiyyətli iradəsi beynəlxalq miqyaslı “PowerChina Resources Ltd” şirkəti ilə də əməkdaşlığın yeni mərhələyə daxil olmasında mühüm rol oynayıb. Bu şirkət Çində ən böyük enerji istehsalçılarından biridir. 25 yaşlı şirkət Honkonq şəhərində yaradılıb və mənzil qərargahı da bu şəhərdə yerləşir. Aktivləri 37 kömür, 3 qaz-istilik, 119 külək, 25 günəş və 2 su-elektrik stansiyası təşkil edən qlobal texnologiya nəhəngi ümumi gücü 43,4 qiqavat olan enerji tədarükü gücünə malikdir. Xarici ölkələrdə bərpaolunan enerji sahəsində sərmayə qoyuluşu ilə fərqlənən “PowerChina” Resources” Azərbaycanı da ən əlverişli ölkələrdən biri hesab edir. Şirkətin icraçı vitse-prezidenti Hi Şiyounun bildirdiyi kimi Azərbaycan təkcə siyasi baxımdan deyil, həm də bazar potensialı və iqtisadi biznes mühiti baxımından əlverişli ölkədir və yeni investisiya layihələrinə yaranan maraq da bu mühüm amillə bağlıdır.

Yeri gəlmişkən, ötən il Prezident İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri zamanı Tiencin şəhərində “PowerChina Group”un icraçı vitse-prezidenti ilə görüşü yeni investisiya qapısının açılmasında faydalı olub, çinli investorlar “yaşıl enerji”, ətraf mühitin mühafizəsi, su resurslarının idarəolunması, çirkab suların təmizlənməsi, elektro-energetika və “yaşıl hidrogen” layihələrində iştirak etmək üçün niyyətlərini bildiriblər.

“PowerChina Group”un “SOCAR Green” ilə birgə fəaliyyət çərçivəsində ən mühüm layihələrindən biri Hacıqabul rayonunda günəş elektrik stansiyasının inşasıdır. 160 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair imzalanmış İcra müqaviləsinə əsasən, stansiyanın 2028-ci ildə istismara verilməsi planlaşdırılır. İllik təxminən 332 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılan stansiya hər il 73 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsinə, atmosferə atılan karbon emissiyalarının 160 min ton azaldılmasına imkan verəcək.

**Xəzərdə 2 QVt gücündə külək elektrik stansiyası inşa olunacaq**

Çinin digər texnologiya şirkətlərinin də ölkəmizdə rəqəmsal və “yaşıl layihələr”də iştirakı nəzərdə tutulur. Ötən il bununla bağlı bir neçə yeni saziş imzalanıb. Məsələn, “Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə “China Energy Overseas Investment Co. Ltd.” şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzər dənizində külək enerjisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsinə başlanılıb. Müqaviləyə əsasən, minimum 2 QVt gücündə dənizdə külək elektrik stansiyasının tikintisi, istismara verilməsi və texniki xidmət üzrə əməkdaşlıq nəzərdə tutulur.

Çinin “ağıllı texnologiyalar” üzrə tanınmış korporosiyalarından biri olan “China Energy International Group Co.,Ltd.” hazırda dünyanın bir çox ölkəsində bərpaolunan enerji güclərinin inteqrasiyası, külək enerjisi layihələrinin icrası, enerji avadanlıqlarının istehsalının təşkilində aparıcı yer tutur. Qeyd edək ki, “China Energy” Dövlət Neft Şirkəti ilə bir neçə ildir ki, sıx əməkdaşlıq edir. Ötən il Bakıda səfərdə olan şirkətin nümayəndə heyəti quruda və dənizdə külək enerjisi ilə bağlı potensialları qiymətləndirərək istehsal komplekslərinə qoşulmağa qərar verib, 2024-cü ilin iyun ayında isə SOCAR-la Əməkdaşlıq Sazişi imzalanıb. Sənədə əsasən, “yaşıl hidrogen” daxil olmaqla bərpa olunan enerji mənbələrinin inkişafı sahəsində birgə işlər həyata keçiriləcək. Ötən gün imzalanan saziş isə şirkətin Xəzərdə Azərbaycana aid sektorda sərmayə cığırı açması üçün əsaslı hüquqi zəmin yaratmaqla, “yaşıl enerji”nin istehsal zəncirinin qurulmasına və enerji dəhlizlərinin inkişafına mühüm töhfə verəcək.

**Çindən “Xəzər-Qara dəniz-Avropa” kabelinin çəkilişinə dəstək**

Energetika Nazirliyi, “China Datang Overseas Investment Co. Ltd” və “SOCAR Green” Məhdud Məsuliyyətli Cəmiyyəti arasında imzalanmış digər bir saziş isə Böyükşor gölündə 30 MVt gücündə batareya enerji saxlanc sistemi ilə 100 MVt gücündə üzən Günəş Elektrik Stansiyası layihəsinin həyata keçirilməsini əks etdirir. Həmçinin, “SOCAR Green” ilə “China Datang Overseas Investment Co. Ltd” və “PowerChina Resources Limited” şirkətləri arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Xəzər dənizinin Azərbaycan sektorunda 2 QVt gücündə dənizdə külək enerjisi layihəsinin həyata keçirilməsi planlaşdırılır. Hər iki saziş olduqca əhatəli və yeni enerji sənayeləşməsinin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Çin Xalq Respublikasının Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu ilə Energetika Nazirliyi arasında imzalanan “Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması”na dair Anlaşma Memorandumu” da mühüm əhəmiyyət kəsb edir. Bu razılaşma “yaşıl enerji” sektorlarında əhatəli qiymətləndirmə işlərinin aparılmasını nəzərdə tutur. Adıçəkilən institut Asiya və Avropanın bir çox regionlarında texnologiya şirkətlərinə məsləhətlər verir. Elektrik enerjisinin planlaşdırılması və mühəndislik institutunun yaradılması sahəsində bu şirkətin təcrübəsi böyükdür və bu baxımdan Anlaşma Memorandumu təcrübə mübadiləsinin aparılmasında mühüm əhəmiyyət kəsb edir.

**Azad ərazilərdə Çinin “ağıllı texnologiyaları”**

Çin şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji layihələrində marağı böyükdür. Hazırda Çin şirkətləri işğaldan azad edilmiş ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyasının inkişaf etdirilməsi, inzibati və yaşayış binalarının avadanlıqlarla təchizatında fəal iştirak edir. Zəngilan, Ağdam və digər ərazilərdə inşa edilən infrastrukturlarda Çin texnologiyalarından geniş istifadə olunur. Bu bölgədə “yaşıl güclərin” potensialının yüksək olması nəzərə alınaraq Çin investorlarının yaşıl layihələrdə təmsil olunması gözlənilir. Çin Beynəlxalq Tədqiqatlar İnstitutunun əməkdaşı Kanq Je bildirib ki, bir müddət əvvəl Şuşada və digər ərazilərdə səfərdə olarkən bu bölgədəki bərpaolunan mənbələri, ələlxüsus da çoxsaylı su elektrik stansiyalarının imkanlarını müşahidə edib. Bu, onda böyük maraq oyadıb və Çin sərmayəçilərinin bu sahəyə gəlişi üçün institutun təşviqedici imkanlarından istifadə etmək niyyətindədir.

*E.CƏFƏRLİ*

# Orta aylıq əməkhaqqı artıb

## Mədənçıxarma sənayesində orta maaş 3787 manat təşkil edib

2026-cı il fevralın 1-i vəziyyətinə ölkədə muzdla çalışan işçilərin sayı 1782 min nəfər olmuş, onlardan 861,4 min nəfəri dövlət sektorunda, 920,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,3 faizi təhsil, 13,8 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi tikinti, 6,2 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi maliyyə və sığorta fəaliyyəti, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 15,1 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olub.

Bu dövrdə ölkədə muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,8 faiz artaraq 1103,8 manat təşkil edib. Ölkədə ən yüksək əməkhaqqı mədənçıxarma sənayesində qeydə alınıb, bu sektorda orta maaş 3787 manat təşkil edib. Maliyyə və sığorta fəaliyyəti sahəsində isə orta aylıq əməkhaqqı 2872, informasiya və rabitə sektorunda 1929, peşə və elm sahəsində 1770, nəqliyyat və anbar təsərrüfatında 1546, dövlət idarəetməsi, müdafiə və sosial bölmələrində 1434, tikintidə 1236, xidmət sahələrində 1220, elektrik enerjisi, qaz təsərrüfatında 1168 manat olub. Ən aşağı orta maaş kənd və meşə təsərrüfatı, balıqçılıq sahələrində qeydə alınıb - 687 manat.

# İşsizlik səviyyəsi 5,2 faiz olub

2026-cı il martın 1-i vəziyyətinə olan dövrdə ölkədə iqtisadi fəal əhalinin sayı isə 5 milyon 385 min nəfərə çatıb. Onların 5 milyon 105,9 mindən çoxunu məşğul əhali təşkil edib ki, bu da əmək bazarında aktivliyin yüksək səviyyədə qaldığını göstərir.

İlkin məlumatlarda işsizlik səviyyəsi 5,2 faizdə qalıb ki, bu da təqribən 6 aylıq sabit dinamikadır. Məşğulluq orqanlarında qeydə alınan işsizlərin sayı 279,8 min nəfər olub. İşsizlikdən sığorta ödənişinin orta aylıq məbləği isə 460 manatdan artıq olub.

Məşğulluğun strukturu göstərir ki, işçilərin əhəmiyyətli hissəsi xidmət sahələrində fəaliyyət göstərir. Ən böyük pay ticarət və nəqliyyat vasitələrinin təmiri, təhsil və səhiyyə sektorlarının üzərinə düşür. Bununla yanaşı, istehsal sahələri, o cümlədən emal sənayesi və tikinti də məşğulluqda nəzərəçarpacaq yer tutur.

Ölkədə əmək bazarının leqallaşdırılması tədbirləri sayəsində əmək müqavilələrinin sayında da artım qeydə alınıb. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əmək müqavilələrinin sayı özəl sektorda 48 min artaraq 1 milyard 034 minə, ümumilikdə isə 1 milyon 895 min nəfərə çatıb. Ümumilikdə, son 7 ildə əmək bazarının leqallaşdırılması və fəaliyyət sahələrində, biznes sektorunda işçi sayının şəffaflaşması prosesləri nəticəsində 493.463 vahid əmək müqaviləsinin rəsmiləşdirilməsi təmin edilib.




Həmin göstəricinin 491 mini qeyri-neft sektorunun özəl bölməsini əhatə edir. Əmək bazarında şəffaflaşdırma və ya “ağarma” sayəsində isə əməkhaqqı fondunun böyüməsi davam edib, sosial sığorta haqları üzrə daxilolmalar yüksəlib. Belə ki, 2026-cı ilin yanvar-fevral aylarında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 1 milyard 19,8 milyon manatdan çox olmaqla proqnozdan əlavə 20,8 milyon manata yaxın vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 706,1 milyon manatdan çox olub.

# Əhalinin gəlirləri artıb, inflyasiya sabit qalıb

Cari ilin yanvar-fevral aylarında ölkə əhalisinin nominal gəlirləri isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz artaraq 12 milyard 573,8 milyon manat təşkil edib. Əhalinin hər nəfərinə düşən gəlir ayda orta hesabla 612,5 manat olub.

2026-cı ilin fevral ayında istehlak qiymətləri indeksi isə 2025-ci ilin fevral ayına nisbətən 5,7 faiz, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,8 faiz, qeyri-qida məhsulları üzrə 3,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz artıb. 2025-ci ilin yanvar-fevral ayları ilə müqayisədə orta illik qiymət artımı 5,7 faiz, son bir ayda isə 0,6 faiz təşkil edib. Nəticədə son bir ildə inflyasiya hökumətin hədəflədiyi proqnoza uyğun olub və sabit çərçivədə qalıb.

Cari ilin fevral ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından əsasən çörək, kolbasa məmulatları, təzə balıq, süd, xama, pendir, kəsmik, süfrə marqarini, zeytun, günəbaxan və qarğıdalı yağları, limon, naringi, banan, alma, armud, heyva, nar, qoz, fındıq, göyərti, xiyar, pomidor, balqabaq, yerkökü, kartof, təbii bal, qəhvə, kakao, mineral sular, sərinləşdirici içkilər, şirələr, alkoqollu içkilər bahalaşıb. Qoyun əti, yumurta, portağal, şabalıd, ağ kələm, soğan isə ucuzlaşıb, digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib. Qeyri-qida məhsulları üzrə istehlak qiymətləri əvvəlki aya nisbətən 0,3 faiz, yanvar-fevral aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,6 faiz artıb. Bu dövrdə əhaliyə göstərilən ödənişli xidmətlər üzrə qiymət artımı isə əvvəlki aya nisbətən 0,2 faiz, yanvar-fevral aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,7 faiz təşkil edib.

**İstehlak qiymətləri indeksi, faizlə**

| | 2026-cı ilin fevral ayı | | 2026-cı ilin yanvar-fevral ayları |
|---|---|---|---|
| | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq ayına nisbətən | 2025-ci ilin yanvar-fevral aylarına nisbətən |
| **Cəmi məhsullar və xidmətlər** | **100,6** | **105,7** | **105,7** |
| qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları | 101,1 | 106,8 | 107,0 |
| qida məhsulları | 101,1 | 106,6 | 106,7 |
| alkoqollu içkilər | 100,8 | 107,8 | 107,6 |
| tütün məmulatları | 100,8 | 112,4 | 112,0 |
| qeyri-qida məhsulları | 100,3 | 103,7 | 103,6 |
| ödənişli xidmətlər | 100,2 | 105,7 | 105,7 |

Yeri gəlmişkən, 2026-cı ilin yanvar-fevral aylarında əhali tərəfindən pərakəndə ticarət şəbəkəsində 10,1 milyard manat pul xərclənib ki, onun 5,5 milyard manatı ərzaq məhsullarına, içki və tütün məmulatlarına sərf edilib. 2025-ci ilin yanvar-fevral ayları ilə müqayisədə vətəndaşlar real ifadədə ərzağa 1,2 faiz çox pul xərcləyib. Bu dövrdə pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda xərclədiyi vəsaitin məbləği 491,5 manat olub.

# İqtisadiyyata yatırılan xarici investisiyalar çoxalıb

2026-cı ilin yanvar-fevral aylarında bütün maliyyə mənbələri hesabına ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 2 milyard 436,4 milyon manat investisiya yönəldilib. Sektorlar üzrə investisiyaların həcmində qeyri-neft-qaz bölməsi əsas yer tutur, bu sektoru 1 milyard 483,8 milyon manat kapital yatırılıb. Neft-qaz sektoruna isə yönəldilən sərmayələrin həcmi 952,6 milyon manat təşkil edib. Xarici dövlətlərin və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala 652,9 milyon manat investisiya yatırılıb ki, bu da bir il əvvəlki göstəricidən 15,1 faiz çoxdur. Xarici investisiya qoyuluşlarında Böyük Britaniya, Türkiyə, Rusiya, ABŞ və İsveçrə ilk beşlikdə dayanır. Sonrakı yerlərdə Yaponiya, İran, Macarıstan, Fransa, Birləşmiş Ərəb Əmirlikləri və Hindistan durur.

*E.CƏFƏRLİ*

# Qarabağ Zəfərimiz dünyaya səs saldı...

*Yeganə BAYRAMOVA*




2020-ci ilin 27-i sentyabrından etibarən 44 gün ərazindəki qısa dövrdə həm döyüş meydanında, həm diplomatiya müstəvisində, həm də informasiya məkanında Azərbaycanı qələbəyə aparan bir tarix yazıldı. 44 günlük Vətən müharibəsi ölkəmizin gücünü, xalqımızın iradəsini və dövlətimizin qətiyyətini bütün dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uzun illər işğal altında olan torpaqlarımızı azad edərək tarixi ədaləti bərpa etdi. Bu müharibə təkcə hərbi qələbə ilə deyil, həm də həmrəyliyin, vətənpərvərliyin və strateji düşüncənin təntənəsi kimi yadda qaldı. Azərbaycan əsgəri yüksək döyüş ruhu və peşəkarlıq nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Qısa müddət ərzində əldə olunan bu uğur müasir hərb tarixində nadir nümunələrdən biri hesab olunur.

Lakin Ermənistanın müharibə dövründə və ondan əvvəl törətdiyi cinayətlər beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qiymətləndirilməlidir. Mülki əhalinin hədəfə alınması, yaşayış məntəqələrinin raket atəşinə tutulması, şəhər və kəndlərin dağıdılması insanlıq əleyhinə cinayətlərin bariz nümunəsidir. Xüsusilə, Gəncəyə raket hücumları zamanı dinc sakinlərin həyatını itirməsi dünya ictimaiyyətində ciddi rezonans doğurdu.

Eyni zamanda, Ermənistan tərəfindən işğal dövründə Azərbaycan ərazilərində həyata keçirilən vandalizm aktları, tarixi və dini abidələrin dağıdılması, təbii sərvətlərin talan edilməsi də beynəlxalq hüquqa zidd əməllər kimi sənədləşdirilib. Bu faktlar bir daha göstərir ki, Ermənistanın siyasəti yalnız işğalçılıq deyil, həm də mədəni irsin sistemli şəkildə məhv edilməsinə yönəlib.

Müharibədən sonra Azərbaycan dövləti qarşısında duran əsas vəzifələrdən biri bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasıdır. Bu istiqamətdə həyata keçirilən informasiya siyasəti, beynəlxalq tribunalarda aparılan diplomatik fəaliyyət və müxtəlif platformalarda yayılan sübutlar mühüm rol oynayır. Azərbaycan tərəfi beynəlxalq təşkilatlara təqdim etdiyi faktlar, foto və video materiallar vasitəsilə Ermənistanın törətdiyi cinayətləri ifşa edir.

Bu gün əsas məqsəd yalnız qələbəni qeyd etmək deyil, həm də ədalətin tam bərqərar olunmasına nail olmaqdır. Müharibə cinayətlərinə hüquqi qiymət verilməsi, günahkarların məsuliyyətə cəlb edilməsi və zərərçəkənlərin hüquqlarının müdafiəsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olmalıdır.

44 günlük Vətən müharibəsində qazanılmış Zəfər Azərbaycanın güclü dövlət olduğunu bir daha sübut etdi. Bu qələbə həm də regionda yeni reallıqlar yaratdı və sülh üçün yeni imkanlar açdı. Lakin davamlı sülhün təmin olunması üçün həqiqətlərin gizlədilməməsi, tarixi faktların təhrif edilməməsi və ədalətin təmin olunması vacib şərtlərdən biridir. Azərbaycan bu istiqamətdə ardıcıl siyasət yürüdərək həm öz haqq səsini dünyaya çatdırır, həm də beynəlxalq hüququn aliliyinin qorunmasına töhfə verməyə davam edir.

Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan sürətli iqtisadi-sosial inkişafa nail olmaqla yanaşı, qısa müddətdə güclü hərbi potensiala, qüdrətli orduya da sahibdir. Məhz erməni təxribatına cavab olaraq başlayan Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycan Ordusu düşmənin hər cür təxribatlarının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almağa qadirdir. Vətən müharibəsi dövründə xalq olaraq güclü birlik və həmrəylik nümayiş etdirdik. Ali Baş Komandanın dediyi kimi, düşmənin başına elə yumruq vurduq ki, uzun müddət özünə gələ bilməyəcək. 30 illik erməni işğalı bitdi, ona görə də xalqımızın bu gün qalib kimi alnı açıqdır. Bu tarixi qələbələr bizim şərəf salnaməmizdir. Qüdrətli və güclü Azərbaycan bu gün özünün bütün dünya tərəfindən qəbul edilən ərazi bütövlüyü çərçivəsində daha da inkişaf edir. Bu inkişaf bölgədə və qlobal müstəvidə sülh və əməkdaşlığa başlıca töhfədir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti üzrə hazırlanmışdır**

# 79 gün qaldı...

## Ermənistan seçim qarşısında - revanşizm və səfalət, yoxsa...

Ermənistanın müasir tarixinin həlledici seçim anına növbəti parlament seçkilərinə 79 gün qalır. İyunun 7-də baş tutacaq parlament seçkiləri bu ölkənin gələcəyi ilə bağlı bütün suallara cavab verəcək. Qeyd edək ki, artıq bir sıra siyasi təşkilatlar seçkidə iştirakla bağlı mövqeyini açıqlayıb. Əvvəldən də bildirildiyi kimi, seçkilərdə əsas favorit hazırkı iqtidar partiyası - baş nazir Nikol Paşinyanın sədrlik etdiyi "Mülki müqavilə" partiyasıdır. 2021-ci ilin iyunun 20-də baş tutan növbədənkənar parlament seçkilərində səslərin 54 faizini, yerlərin isə 71-ni qazanan "Mülki Müqavilə" mütləq qələbə əldə etmişdi. Onu izləyən ən əsas rəqibi Robert Köçəryanın başçılıq etdiyi Ermənistan Alyansı təxminən iki dəfə az - 29 yerlə kifayətlənmişdi. Parlamentdəki əsas üçüncü partiya isə Artur Vanetsyanın rəhbəri olduğu "Şərəfim Var" Alyansı olmuşdu - partiya 7 yer qazanmışdı. Başqa heç bir partiya və ya ittifaq seçki hədd limitini keçərək yer qazana bilməmişdi.

**Əsas namizədlər, əsas rəqabət...**

Siyasi ekspertlərin fikrincə, bu dəfə seçki marafonunda yarış daha fərqli aspektlər və tezislər üzrə müəyyənləşəcək. Əgər ötən seçki post-müharibə dövründə "etimad mandatı" statusu daşıyırdısa, bu dəfəki seçki prosesinin nəticəsi ölkənin yaxın 5 ildəki xarici siyasətinə, daxili sabitliyinə əhəmiyyətli təsir göstərəcək. Namizədlər və onların seçki platformaları da bunu deyir.

Qeyd edək ki, artıq seçkidə iştirakla bağlı bir sıra partiyalar öz mövqelərini açıqlayıblar. Real mübarizə platformasında "üzü-üzə" gələ biləcək təşkilatların adları isə məlumdur. Belə ki, iqtidar partiyasına qarşı əsas rəqabəti yenə də Köçəryanın başçısı olduğu "Ermənistan" bloku aparacaq. Seçkinin sürpriz adı isə bir müddət öncə həbs olunan oliqarx Samvel Karapetyandır. "Güclü Ermənistan" partiyasının lideri statusunda seçkilərə qatılacaq oliqarx-siyasətçinin seçki hazırlıqları isə özünün müxalif həmkarından, Robert Köçəryandan fərqlənir. Görünən budur ki, Karapetyan daha mütəşəkkil "komanda" və təbliğat vasitələri ilə seçkiyə qatılmağa hazırlaşır.

**Fərqli baxış bucağı...**

Vurğulandığı kimi, əsas mübarizə məhz bu üç namizədin başçılıq etdiyi siyasi təşkilatlar arasında baş tutacaq. Siyasi situasiya baxımından seçkinin gedişi və nəticəsi isə Ermənistanın gələcəyi üçün olduqca böyük məna kəsb edir. Belə ki, Paşinyanın hər iki rəqibi revanşist qüvvələrin və daha çox Rusiya meyilli siyasi təmayülün təmsilçiləri sayılırlar. Bu baxımdan, siyasi ekspertlər seçkini həm də "qütblərarası savaşın seçkisi" adlandırırlar. Bəlli olduğu kimi, Nikol Paşinyan son bir neçə ildə ölkəsini Rusiya orbitindən uzaqlaşdıraraq Qərbə inteqrasiya yolunu seçib. Paralel olaraq, regional münasibətlər sisteminə baxış fərqlidir - Paşinyan ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanması sənədinə imza atıb, Konstitusiya dəyişikliyini və Azərbaycan torpaqlarına əsassız iddialardan əl çəkmək yolunu seçib, ölkəsinin yeni iqtisadi nizamda logistik iştirakını təsdiqləyib. Amma digər iki namizəd məsələlərə baxışında tam fərqli bir yol təqib etməkdədir.

**Samvel Karapetyan: pul gücünə təbliğat**

Rusiyanın "patronajlığı" altında seçkiyə qatıldığı iddia edilən Samvel Karapetyan Ermənistan ictimaiyyətində daha çox oliqarx kimi tanınır. Ötən ilin iyunun 18-də "hakimiyyətin zorla ələ keçirilməsinə açıq çağırışlar etmək" maddəsi ilə ittiham olunaraq həbs edilmişdi. Həmin vaxt Ermənistan hüquq-mühafizə orqanları bildirmişdilər ki, Karapetyanın açıqlamaları və fəaliyyətləri ölkənin konstitusion quruluşu üçün təhlükə yaradıb. Sonradan həbsxana təcridi ev dustaqlığı ilə əvəz edilsə də, bu ilin yanvarında Karapetyan məhkəmənin qərarı ilə yenidən "dörd divar" arasına qaytarıldı. Cəmisi 1 gün sonra isə bu qərar da dəyişdirildi - Karapetyan yenidən ev dustaqlığına qayıtdı.

Son günlər isə Karapetyanın rəhbərlik etdiyi "Güclü Ermənistan" partiyası seçki ilə bağlı özünün proqramını açıqlayıb. "Güclü Sülh" adlanan proqramın artıq təqdimatı da baş tutub. Proqram partiyanın və onun baş nazirliyə namizədinin məramlarını əks etdirir. Proqramda bir sıra istiqamətlər müəyyənləşib. "Güclü Ermənistan" partiyasının təhlükəsizlik qrupunun rəhbəri Artur Avanesyan Samvel Karapetyanın təhlükəsizlik planını təqdim edərkən bildirib ki, "Bizim çoxsaylı zaminlər tərəfindən təmin edilən davamlı sülhə aparacaq güclü diplomatiyamız olacaq və danışıqlar birtərəfli güzəştlər olmadan aparılacaq".

Avanesyanın "birtərəfli güzəşt" fikri çox güman ki, Konstitusiya dəyişikliyi və Zəngəzur dəhlizi (TRIPP) anlayışına qarşı yönəlib. Yəni, Karapetyanın hakimiyyətə gəlişi Vaşinqton prosesindən birmənalı imtina demək kimi də anlaşıla bilər. Göründüyü kimi, Karapetyan bölgədə formalaşan sülh prosesinə təhdidi özündə əks etdirən planlar təbliğ etməkdədir. Məsələn, revanşist namizəd ölkəsinin iqtisadi potensialının yüksəldilməsi ilə bağlı qarmaqarışıq fikirlər səsləndirsə də, "ordu qurculuğu" məsələsində daha aydın - təcavüzkar mövqe sərgiləyir. Partiyanın başqa bir üzvü Artur Mikaelyan bildirir ki, Karapetyan "nə zabitlərin, nə də əsgərlərin siyasi uğursuzluqlara görə məsuliyyət daşımayacağı bir ordu qurmaq məqsədi"ni irəli sürür. Maraqlıdır ki, yüksək maddi imkanlara malik Karapetyan artıq bir sıra KİV-ləri və siyasi analitikləri də "ələ ala bilib". Rusiyapərəst siyasi təhlilçilər açıq şəkildə Karapetyanın təbliğatı ilə məşğuldurlar.

**Robert Köçəryan: nostalji, nasizm və revanşizm...**

Seçkilərin başqa bir namizədi - Xocalı qatili, Azərbaycana qarşı törədilmiş bir sıra cinayətlərin iştirakçısı və rəhbəri Robert Köçəryan 1997-1998 -ci illərdə Ermənistanın baş naziri, 1998-2008-ci illərdə isə prezidenti olub. Onun hakimiyyət illəri əsasən Ermənistanın Rusiyanın "fər-post"u olduğu dövr kimi yadda qalıb. Siyasi ekspertlərin fikrincə, Köçəryanın hakimiyyətə qayıdışı da eyni motivlə müşayət olunacaq - Ermənistan yenidən 90-cı illərin sonundakı dövrə yuvarlanacaq. Qeyd edək ki, bu dəfəki seçkidə Erməni İnqilab Federasiyası (Daşnaksütyun) da Köçəryanı dəstəkləyir. Köçəryanın əsas seçki prinsipi işğalçı düşüncədir - o, revanşist təfəkkürü davam etdirəcəyini və açıq şəkildə yeni müharibə arzularını dilə gətirir. Ermənistan mətbuatının məlumatına görə, Köçəryanın seçki proqramı daha çox "nostalji" hisslər üzərində qurulub:

- Köçəryan Ermənistanın yenidən Cənubi Qafqazın təhdid mənbəyi kimi görmək istəyir - o, Ermənistanın mövcud reallıqlara uyğunlaşmayan bir dövlət kimi analiz edir;

- Köçəryan şovinizmi, nasizmi və erməni kilsəsinin ideyalarını təbliğ edir. "Ermənistan" blokunun deputatı İşxan Saqatelyan bildirib ki, Köçəryan erməni Apostol Kilsəsini "varlığımızın təməli" kimi dəyərləndirir;

- Köçəryan Ermənistan dövlətinin "sükanını" yenidən lobbi qruplarının ixtiyarına buraxmaq niyyətindədir. O, xaricdə yaşayan ermənilərin dövlətin idarəçiliyində iştirakının tərəfdarıdır.



Vurğulayaq ki, 2018-ci il hadisələrindən sonra Köçəryan siyasi palitradan uzaqlaşmışdı - yerinə isə oğlu Levon Köçəryanı gətirmişdi. Amma oğul Köçəryan atasını "əvəz edə bilmədi". Ekspertlər bildirirlər ki, 73 yaşlı ata Köçəryanın Rusiyadan qayıdışı və yenidən siyasi fəaliyyətə başlaması göstərişi alması da Levonun gözlənilən effekti verməməsi ilə bağlıdır. Amma bununla belə Köçəryanın seçkilərdəki qələbə ehtimalı zəif dəyərləndirilir - səbəb kimi isə, onun rəhbərliyi dövründə Ermənistanın aclıq və səfalət içində olması göstərilir.

**Nikol Paşinyan: Ermənistanın gələcəyi üçün sülh arzusu**

Nəhayət, seçkilərin açıq favoriti hazırkı baş nazir Nikol Paşinyanın başçılıq etdiyi "Mülki Müqavilə" parityası sayılır. Son sorğular da bu faktı təsdiqləyir. Belə ki, mart ayında 1506 respondent arasında keçirilmiş sorğuda iqtidar partiyası 24 faiz səslə lider olub. Samvel Karapetyanın Güclü Ermənistan Partiyası respondentlərin 9, Robert Köçəryanın rəhbərlik etdiyi Ermənistan Alyansı isə təxminən 3 faiz səs toplayıb. Digər 3 faiz isə milyarder Qaqik Tsarukyanın Çiçəklənən Ermənistan partiyasına səs verəcəklərini bildirib.

Bunun əsas səbəbi kimi isə Ermənistan cəmiyyətinin Paşinyanın sülh siyasətinə dəstək verməsidir. Bəlli olduğu kimi, Nikol Paşinyan Azərbaycan ilə münasibətlərin normallaşmasını, Konstitusiyanın dəyişməsini, sülh müqaviləsinin imzalanmasını prioritet elan edib. Son 7 ayda Ermənistan üçün mühüm yeniliklər baş verib - Azərbaycan Ermənistana yük daşınması ilə bağlı embarqosunu aradan qaldırıb, neft məhsullarının ixracına başlayıb. Bu isə Ermənistanda sosial həyatın yaxşılaşmasına təkan verir. Erməni cəmiyyəti müharibə tezisləri üzərindən təbliğat aparan namizədlərin hazırkı düzəni dağıtmasından qorxur - Paşinyanın apardığı siyasəti isə Ermənistanın "xilası" adlandırırlar. Siyasi ekspertlər bildirirlər ki, Zəngəzur dəhlizi (TRIPP) layihəsi Ermənistan üçün "iqtisadi nəfəslik" ola bilər.

*Pərviz SADAYOĞLU*

# Eskalasiyaya eskalasiya ilə cavab veriləcək!



## Körfəz ölkələrindən xəbərdarlıq: cavab haqqını özümüzdə saxlayırıq

Yaxın Şərqdə 20 gündür davam edən gərginlik səngimək bilmir. Beynəlxalq internet monitorinq xidməti "NetBlocks"a görə, İranda internet bağlantısı 450 saatdan çox və ya 19 gündən çoxdur ki, deməli olar ki, tamamilə kəsilib ki, bu da ölkə tarixində ən uzun kəsintidir.

TASS-ın yaydığı xəbərə görə, artıq 20 gündür ki, müharibə səbəbilə Yaxın Şərqdə sərt hava nəqliyyatı məhdudiyyətləri qüvvədədir. Qeyd edək ki, Yaxın Şərq ölkələrinin hava məkanı fevralın 28-dən bağlanıb. "O vaxtdan 20 gün keçib: İran, İraq və Küveyt üzərindən uçuşlar dayandırılıb və Suriya hava məkanı da qismən bağlıdır - uçuşlara yalnız Hələbə, yalnız üç təyin olunmuş dəhliz boyunca icazə verilir", - deyə region ölkələrindən birinin hava nəqliyyatının idarə edilməsi xidmətindəki mənbə bildirib.

**Hava məkanları bağlıdır**

Qeyd olunub ki, Bəhreyn üzərindəki hava məkanı da bağlıdır, lakin paytaxtdan bəzi uçuşlara, məsələn Səudiyyə Ərəbistanına ən qısa dəhliz boyunca icazə verilir. BƏƏ isə hava məkanının qismən bağlanması zamanı yerli hava limanlarına altı marşrut müəyyən edib və yerli hakimiyyət orqanları bütün daşıyıcıların regiondakı ümumi vəziyyətlə əlaqəli potensial əməliyyat risklərini qiymətləndirməli olduqları barədə xəbərdarlıq edib. Təxminən iki həftə əvvəl Qətər hava məkanını gündə 11 saat qismən açmağa başlayıb və bu, Qətərə ölkədə qalmış turistlər üçün repatriasiya uçuşları həyata keçirməklə yanaşı bir neçə paytaxt şəhərinə müntəzəm uçuşlar etməyə imkan verib. Qeyd edək ki, hələlik Qətər üzərindən yalnız tibbi və hökumət təyyarələrinə, eləcə də xüsusi icazə ilə hava axtarış və xilasetmə əməliyyatlarına icazə verilir.

**Səudiyyə Ərəbistanı hədələdi...**

Eskalasiyanın miqyası isə daha da böyüyə bilər. Səudiyyə Ərəbistanı və digər Körfəz Ərəb dövlətləri İrandan gələn hər hansı bir gərginliyə qarşı sərt reaksiya verəcəklərini bəyan edib. Bu açıqlamanı Səudiyyə Ərəbistanının xarici işlər naziri Feysəl bin Fərhan Əl Səud verib. Səudiyyə Ərəbistanının xarici işlər naziri həmçinin qeyd edib ki, İran rəhbərliyi Körfəz Ərəb dövlətlərinin onun hücumlarına cavab verə bilmədiyinə inanmaqda səhv edib: "Əgər İran Körfəz Ərəb Dövlətlərinin onun təcavüzünə cavab verə bilməyəcəyini düşünürdüsə, səhv edirdi. Səudiyyə Ərəbistanı və regiondakı digər ölkələr lazımi hərbi imkanlara malikdir və biz lazım gələrsə, hamısından istifadə edəcəyik".

O, bildirib ki, "İrana qarşı son etimad izləri tamamilə sarsılıb" və Tehran, onun fikrincə, "qonşuları ilə dialoqa inanmır". Nazirin sözlərinə görə, İran "siyasi məqsədlərinə çatmaq üçün şantaj"dan istifadə edir: "Üzr istəyir, amma bunlar da ölkələrimizi şantaj etmək cəhdindən başqa bir şey deyil. Hər hansı bir eskalasiya yalnız əks-eskalasiya ilə qarşılanacaq".

Nazir qeyd edib ki, Səudiyyə Ərəbistanının səbri "sonsuz deyil" və ölkə İrana olan etimad "sarsıldığından" İranın hərəkətlərinə cavab vermək hüququnu özündə saxlayır. Fərhan Əl Səud, həmçinin Tehranın bu cür hücumların Amerika hərbi bazalarının mövcudluğu ilə əlaqəli olduğu iddiasının "inandırıcı olmadığını" qeyd edib.

**Ər-Riyadda toplantı...**

Yeri gəlmişkən, Ər-Riyadda görüşən 12 ərəb və İslam ölkəsinin xarici işlər nazirləri İranın Körfəz Ərəb dövlətlərinə hücumlarını dayandırmağa çağırıblar. Bununla bağlı mövqe yekun açıqlamada öz əksini tapıb. Bildirilib ki, İranın Körfəz ölkələrinə hücumları heç bir şəkildə əsaslandırıla bilməz; onların hədəfləri mülki infrastruktur və yaşayış məntəqələrini əhatə edir. Tehran bu hücumları dərhal dayandırmalıdır.

Ər-Riyad görüşünün iştirakçıları, həmçinin Körfəz Ərəb dövlətlərinin "özünümüdafiə hüququna malik olduğunu" təsdiqləyiblər.

**İlk atəşkəs...**

Yaxın Şərqdə müvəqqəti də olsa ilk atəşkəs elan edilib. Belə ki, "Kətaib Hizbullah"ı Bağdaddakı ABŞ səfirliyinə qarşı beş günlük atəşkəs elan edib. İrəli sürülən şərtlərə əsasən, İsrail ordusu Beyrutun cənub ətrafı və Bağdaddakı yaşayış məntəqələrini bombalamağı dayandırmalı, Mərkəzi Kəşfiyyat İdarəsi əməkdaşları yerləşdikləri yerlərdən çıxarılmalı, ABŞ səfirliyi həmin yerlərin yurisdiksiyasına verilməlidir. "Kətaib Hizbullah"nın baş katibi Əbu Hüseyn Əl-Həmidavi xəbərdarlıq edib ki, əgər şərtlər yerinə yetirilməsə, beş gündən sonra cavab tədbirləri "birbaşa və hədəfə alınacaq" şəkildə həyata keçiriləcək.

**Bəndər-Ənzəli limanı hədəfə alındı**

Xəzər dənizindəki Bəndər-Ənzəli limanında İranın hərbi dəniz qüvvələrinə zərbə endirib. Zərbə nəticəsində İranın azı 5 hərbi gəmisi sıradan çıxıb. Məlumata əsasən, hücum nəticəsində gəmilər ciddi ziyan görüb və onların döyüş qabiliyyəti itirilib. Zərbələrin, eyni zamanda, bəzi hərbi infrastruktur obyektlərini də əhatə etdiyi qeyd olunur.

Qeyd edək ki, Bəndər-Ənzəli limanı İranın Xəzər hövzəsində əsas ticarət qapılarından biridir və strateji obyektdir. Liman "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin ən kritik həlqələrindən biri hesab olunur.

**"Cənubi Pars" qaz müəssisəsinə endirilən zərbələrə cavab**

Bəhreynin ABŞ-a məxsusluğu bildirilən mayeləşdirilmiş təbii qaz (LNG) zavodu güclü raket zərbələrinə məruz qalıb. Məlumata görə, Tehran rəhbərliyi bu hücumun İranın "Cənubi Pars" qaz müəssisəsinə endirilən zərbələrə cavab olaraq həyata keçirildiyini bəyan edib.

Bildirilir ki, hədəf alınan obyekt Bəhreyn adalarını Səudiyyə Ərəbistanı ilə birləşdirən strateji körpünün yaxınlığında yerləşir. Güclü partlayışlar nəticəsində həmin körpüyə də ciddi ziyan dəyib.

Qeyd edək ki, bir neçə gün öncə İranın ən böyük qaz yatağı olan "Cənubi Pars"a hücum olunub. Rəsmi Vaşinqton hücumda iştirak etmədiyini bidirsə də, İran kəskin bəyanatla çıxış edib. Tehran regiondakı digər ölkələrin, Səudiyyə Ərəbistanı, Bəhreyn, BƏƏ, Küveyt və Qətərin bütün neft-qaz infrastrukturunu hədəf alacağını elan edib.

**Qətər diplomatları çıxardı...**

Bu arada "Qatar Energy" şirkəti "X" hesabında 19 martda istehsal infrastrukturuna daha bir raket hücumu edildiyini açıqlayıb: "18 martda Ras Laffan sənaye şəhərinə edilən və əhəmiyyətli ziyana səbəb olan əvvəlki hücuma əlavə olaraq "Qatar Energy" şirkəti 19 martın səhər saatlarında mayeləşdirilmiş təbii qaz istehsalı ilə əlaqəli bəzi obyektlərin raket zərbəsi ilə hədəfə alındığını və nəticədə ciddi yanğın və genişmiqyaslı ziyanın baş verdiyini təsdiqləyir". Xəsarət alanlar barədə məlumat verilməyib.

Qətər dövləti İranın iki hərbi attaşesini və onların tabeliyində olan əməkdaşları "persona non-grata" (arzuedilməz şəxs) elan edərək, ölkəni tərk etmələri üçün onlara 24 saat vaxt verib. Bu barədə məlumatı əmirliyin Xarici İşlər Nazirliyi yayıb.

Qətər XİN-in mətbuat xidmətinin açıqlamasında bildirilib ki, "İranın hərbi attaşesi və təhlükəsizlik məsələləri üzrə attaşesi, həmçinin onların bütün tabeliyində olan şəxslər "persona non-grata" elan ediliblər və növbəti 24 saat ərzində Qətər ərazisini tərk etməlidirlər".

**"Habshan"a da zərbə endirilib**

Əbu-Dabinin ən böyük təbii qaz emalı kompleksi olan "Habshan"a da zərbə endirilib. BƏƏ hakimiyyəti kompleksdə işlərin raket hücumundan sonra müvəqqəti olaraq dayandırıldığını elan edib: "Habshan" qaz emalı zavodundakı əməliyyatlar dayandırılıb". Hücum nəticəsində xəsarət alan olmayıb.

Səudiyyə Ərəbistanında yerləşən "Samref" neft emalı zavoduna da havadan zərbələr endirilib. "Reuters" agentliyinin öz mənbələrinə istinadən yaydığı məlumata görə, hücumun nəticələri minimaldır. "Samref" zavodu "Saudi Aramco" və "Exxon Mobil" şirkətlərinin birgə müəssisəsidir. Müəssisə Qırmızı dəniz sahilindəki Yanbu liman şəhərində yerləşir. Qeyd olunur ki, hazırda bu liman Səudiyyə Ərəbistanının neft ixracı üçün yeganə çıxış məntəqəsidir.

**Hörmüzdə yeni rejim**

Müharibənin bitməsinin ardından isə Hörmüz boğazında yeni hüquqi rejim yarana bilər. İranın xarici işlər nazirinin müavini Vahid Cəlalzadə açıqlama verərək deyib ki, müharibə başa çatdıqdan sonra İran Omanla birlikdə boğazdan keçid şərtlərini müəyyən edəcək. Cəlalzadə bildirib ki, yeni hüquqi rejimin yaradılması artıq qərarlaşdırılıb və bu proses ölkənin silahlı qüvvələrinin dəstəyi ilə həyata keçiriləcək.

**Senat bu dəfə də icazə vermədi**

ABŞ Senatı prosedur səsverməsi zamanı qanunvericilik orqanının icazəsi olmadan İrana qarşı hərbi güc tətbiqinə imkan yaradılmasını özündə əks etdirən qətnaməni yenidən rədd edib. Nyu-Cersi ştatından olan Kori Bukerin təklif etdiyi tədbirin lehinə 47 senator, əleyhinə isə 53 senator səs verib. Tədbirin respublikaçıların nəzarətində olan yuxarı palatada qəbul edilməsi üçün prosedur və yekun səsvermə zamanı qanunvericilərin sadə səs çoxluğu ilə dəstəklənməsi tələb olunurdu. 4 martda Bukerin həmkarı Tim Keynin (Virciniya ştatından olan deputat) təklif etdiyi oxşar qanun layihəsi də yuxarı palatada prosedur səsverməsində uğursuzluqla qarşılaşmışdı.

"The Washington Post" (WP) mənbələrə istinadən xəbər verir ki, ABŞ ordusu İrana qarşı əməliyyatı davam etdirmək üçün 200 milyard dollardan çox vəsait tələb edir.

**Neft emalı zavodunda yanğın...**

Pilotsuz təyyarə hücumundan sonra Küveyt paytaxtının 45 kilometr cənubunda yerləşən Port Abdullahdakı neft emalı zavodunun istehsalat bölmələrindən birində yanğın baş verib. Bu barədə Küveyt Neft Korporasiyası məlumat verib. KUNA xəbər agentliyinin istinad etdiyi açıqlamaya görə, işçilərin və obyektin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirlər görülüb. Korporasiya daha sonra yanğının söndürüldüyünü bildirib. "Əl-Əhmədi və Abdullahdakı neft emalı zavodlarının istehsalat bölmələrinə pilotsuz təyyarələrin hücumları nəticəsində baş verən iki yanğın söndürülüb", - deyə şirkətin açıqlamasında bildirilib.

**Aİ narahatdır**

Aİ Yaxın Şərqdəki eskalasiyadan narahatlığını növbəti dəfə ifadə edib. Qurumun ali nümayəndəsi Kaya Kallas bildirib ki, Qətərdəki LNG zavoduna hücum xaosa səbəb olub. O qeyd edib ki, münaqişənin təcili olaraq həll yolu tapılmalıdır. "İranın Qətərdəki LNG zavoduna hücumu xaosa səbəb olub. Təcili olaraq çıxış yolu strategiyasına ehtiyacımız var. Biz bu müharibədən çıxış yolunu görmək istəyirik. Biz Yaxın Şərqdə xaosu və bunun da bütün dünya üçün nəticələrini görürük".

**İki PUA məhv edildi**

İran İslam İnqilabı Keşikçiləri Korpusunun mətbuat xidmətinin məlumatına görə, İranın hava hücumundan müdafiə sistemləri 19 mart gecəsi iki İsrail PUA-sını məhv edib və kruiz raketini ələ keçirib. İsrail Müdafiə Qüvvələrinin mətbuat xidmətinin məlumatına görə, İsrail təyyarəsi İranın qərbindəki Sənəndəc hava limanında İslam İnqilabı Keşikçiləri Korpusunun Mi-17 helikopterinə hücum edib.

**İran BƏƏ-dən təzminat istəyir**

İran ABŞ-ın Əmirlik ərazisindən edilən zərbələri nəticəsində dəyən ziyana görə BƏƏ-dən təzminat tələb edir. Bu barədə İslam Respublikasının BMT-dəki daimi nümayəndəsi Səid İrəvani BMT-nin baş katibi Antonio Quterreşə ünvanladığı məktubda yazıb.

İran Məclisinin sədri Məhəmməd Bağer Qalibaf isə bildirib ki, Hörmüz boğazı məqsədli şəkildə deyil, özünümüdafiə səbəbilə bağlanıb.

***P.İSMAYILOV***

# ABŞ təmkinli uçot siyasətinə keçdi

## Federal Ehtiyat Sistemi daxili və xarici riskləri nəzərə alaraq pul siyasəti dəhlizini sabit saxlayıb

Amerika Birləşmiş Ştatlarının (ABŞ) Mərkəzi Bank funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sistemi (FES) martın 18-də keçirilən iclasında 2026-cı ilin ikinci pul siyasəti qərarını açıqlayıb. Qərara əsasən, faiz dərəcəsi 3,50- 3,75 aralığında sabit saxlanılıb. Yəni FES aşağı uçot siyasətinin davam etdirilməsini məqsədəuyğun hesab etməyib və mövcud stavkanı məqbul sayıb. Qeyd edək ki, FES sonuncu dəfə 2025-ci il dekabrın 10-da faiz dərəcəsini 25 baza bəndi endirib və hazırda bu rəqəm 3,75-dən yüksək deyil. Bu isə mövcud uçot dərəcəsinin 2022-ci ilin sonundan bəri ən aşağı səviyyədə qaldığını əks etdirir.

Yeri gəlmişkən, faiz qərarı ilə bağlı səsvermədə gərginliklər də yaşanıb. İdarə heyətində 11 üzv faizin sabit saxlanmasına səs versə də, Steven Miran faizlərin 25 baza bəndi azaldılaraq 3,25-3,50 aralığına endirilməsini təklif edib. Onun bu təklifi geri çevrildiyindən Miran bank heyətini iqtisadiyyatın inkişafına təkan verməməkdə ittiham edib. Onun kriptobazarın fəal dəstəkçisi olması və aşağı faizlər dəhlizində israr etməsi investisiya və fond bazarlarının üzvlərinə yaxınlığından irəli gəlir. Çünki aşağı faiz dərəcəsi stavkası maliyyə-bank sektorunda daha sərfəli və ucuz kredit mühitini təmin edə, maliyyə qurumlarını əlverişli faiz dəhlizi çərçivəsində iqtisadiyyata böyükhəcmli pul buraxmasını stimullaşdırır. Eləcə də maliyyə sektoru və investorlar bazara çoxlu pul və qiymətli kağızlar emissiya etməklə iqtisadi canlanmanı, alıcılıq və istehlak dövriyyəsini artırmağa çalışır. Ancaq bank heyəti hazırkı qlobal təhdidlər fonunda belə bir addımın fayda verəcəyinə inanmadığından aşağı dəhlizi dəstəkləməyir.

### Yaxın Şərqdəki gərginlik pul siyasətinə də təsir edir

FES sədri Jerome Povel qərardan sonra keçirdiyi mətbuat konfransında iqtisadi vəziyyətə dair fikirlərini bölüşərkən bildirib ki, ABŞ-da inflyasiya hələ də yüksək səviyyədə qalır və hazırda qlobal bazarda enerji qiymətlərinin yüksək qalması inflyasiyanı daha da artıracaq. Xüsusilə də, yeni neft şokunun yaşanması mal və xidmətlərin dəyərini kəskin bahalaşdırmaqla inflyasiyanın hərarətini artıracaq.

ABŞ Mərkəzi Bankının açıqlamasında da məlum olur ki, qurum ehtiyatlı və mühafizəkar pul siyasətinin davam etdirilməsində qərarlıdır. Buna təsir edən bir çox fundamental amillər var ki, onlar həm daxili makroiqtisadi mühitdən, həm də xarici təsirlərdən qaynaqlanır. İlk növbədə, ABŞ-da inkişaf göstəriciləri kifayət qədər qənaətbəxş hesab edilsə də, bəzi bazar və maliyyə indikatorları hökumətin baxışlarına tam cavab vermir. Ölkədə ilin ilk 2 ayı ərzində iqtisadi fəaliyyət sabit şəkildə davam edib, əmək bazarı güclü qalır və işsizlik səviyyəsi son aylarda əhəmiyyətli dəyişiklik göstərməyib. Ancaq, bununla belə, inflyasiya hələ də hədəf səviyyəsindən yüksəkdir, maliyyə indeksləri artmayıb, hətta bəzi investisiya qurumlarının və fond institutlarının indeksləri cüzi ucuzlaşıb. Mart ayında isə iqtisadi aktivlik müəyyən qədər zəifləyib, istehlak sektorunda artım tempi yavaşıyıb, biznes göstəricilərində ehtiyatlı dinamika müşahidə olunur. Bu vəziyyət ABŞ dollarının qlobal valyuta bazarlarında güclü və davamlı yüksəliş trendi formalaşdırmasının qarşısını da alır.

Yaxın Şərqdəki gərginliyin ABŞ iqtisadiyyatına təsiri ilə bağlı qeyri-müəyyənliyə diqqət çəkən FES xarici faktorun pul və maliyyə bazarlarını təhdid edəcəyini gizlətmir. Bu ssenarilər şəraitində qiymət sabitliyi və tam məşğulluq hədəfləri üzrə riskləri yaxından izləməyə davam edəcəyini vurğulayan qurum gərginliyin uçot siyasətinə mənfi təsirlərini istisna etmir. Qeyd olunduğuna görə, gələcək faiz qərarlarında iqtisadi göstəriciləri, proqnozlardakı dəyişiklikləri və risk balansını diqqətlə qiymətləndirəcək. Gərginliklər bir neçə ay davam etsə, Mərkəzi Bankın faiz dərəcələrini aşağı salması tamamilə gündəlikdən çıxarılacaq, əksinə faiz dərəcələrinin artırılması mümkün ola bilər.

### FES-in qərarı qlobal bazara necə təsir göstərəcək?

FES-in yüksək faiz dərəcələri qlobal maliyyə və investisiya bazarını müəyyən qədər sıxır və səhmdarlar aktivlərə yüksək həcmlərdə kapital yatırmırlar. Aşağı dərəcəli faiz stavkası isə qlobal bazar iştirakçıları



və iri səhmdarlar üçün də xüsusi əhmiyyət kəsb edir. Ümumiyyətlə, ABŞ-ın uçot siyasəti qlobal iqtisadiyyatın müxtəlif sektorlarında, ələlxüsus da birjalarda virtual volatilliklərin baş verməsinə səbəb olur. Amerikanın aparıcı fond birjalarında istiqraz və bondların, səhmlərin, digər qiymətli kağızların bazar indeksləri artımlar nümayiş etdirir.

Dünya birjaları bu addımın yeni hərəkətverici impuls yaradacağını ehtimal edirlər. Xüsusilə də, maliyyə və investisiya alətlərinin, əsas əmtəə və qiymətli metalların qiymətlərində dəyişikliklər faiz siyasətinə uyğun nizamlanır. Məlumdur ki, Trampın yeni maliyyə siyasəti də məhz aşağı uçot dəhlizi çərçivəsində ucuz dollar, bahalı qızıl və rəqəmsal valyuta investisiyasına əsaslanır. Çünki dolların ucuzlaşması istehsal və ixracı yüksəldir ki, bu da Amerikadan qlobal bazarlara daha çox mal və əmtəələrin çıxışına səbəb olur. Bu siyasət nəticə etibarilə iqtisadi aktivliyi və ixrac gəlirlərini yüksəldir. Dollar ucuzlaşanda isə qızıl və blokçeynlər bahalaşır. Məsələ ondadır ki, son günlərdə regionda baş verən gərginliklər qızılın da qiymətini davamlı dəyişdirir, sarı metalın unsiyası martın əvvəlində 5200 dollara yüksəlmişdisə, hazırda 4850 dollara düşüb. Eləcə də kriptovalyutaların da dəyəri aşağıya doğru istiqamətlənib. Dünyada ən bahalı kriptovalyuta (rəqəmsal pul) olan "Bitcoin"in dəyəri ticarət birjalarında yanvarda 124 min dollara qədər yüksəlmişdisə, son bir ayda davamlı ucuzalaşaraq son sutkada 74 min dollar səviyyəsinə düşüb.

Beləliklə, FES-in sabit uçot dərəcəsi qlobal mühitdə qeyri-müəyyənliklərin davam etməsinə səbəb olacaq, investorların kapital daralması fonunda gözləmə mövqeyində durmasını şərtləndirəcək. ABŞ-la yanaşı, qlobal investorlar arasında investisiya alətlərinin qızıl və kritovalyuta yığımlarına transformasiyasını eyni səviyyədə saxlayacaq. Qlobal səhmdarlar, iri şirkətlər, suveren fondlar faiz dəhlizinin təsirləri fonunda investisiya alətlərinin dəyərini qoruyub saxlamağa üstünlük verəcək. Çünki neft sıçrayışlarının fond bazarlarını sarsıtma ehtimalı böyükdür və dünya iqtisadiyyatında qlobal müəyyənsizliyin artması səhmdarları digər sahələrə də sərmayələrini azaltmağa məcbur edəcək.

***E.CƏFƏRLİ***

# Üçtərəfli danışıqlar prosesi dayandırılıb?

## Rusiya-Ukrayna-ABŞ platformasının gələcəyi sual altındadır

Yaxın Şərqdə münaqişənin davam etməsi nəticəsində Rusiya-Ukrayna müharibəsinin həlli ilə bağlı aparılan danışıqlar arxa plana keçib. Çünki hazırda ABŞ-ın İsraillə birlikdə İrana qarşı müharibə aparması Ukrayna probleminə daha çox diqqət ayrılmasını mümkünsüz edir. Xatırladaq ki, Donal Tramp yenidən hakimiyyətə gəldikdən sonra bu müharibəni həll edəcəyini vəd etmişdi. Tramp bunun üçün diplomatik fəallığı artıraraq tərəflər arasında vasitəçilik edib. Belə ki, Vaşinqtonun təşəbbüsü ilə Rusiya və Ukrayna nümayəndələrinin dəfələrlə görüşü keçirilib.

### Sonuncu üçtərəfli Cenevrə görüşü...

Rusiya, Ukrayna və ABŞ nümayəndə heyətləri arasında Ukraynadakı münaqişənin həllinə dair üçtərəfli danışıqların sonuncu - üçüncü raundu 17-18 fevral tarixlərində Cenevrədə baş tutmuşdu. Birinci gün məsləhətləşmələr təxminən altı saat davam edib və Rusiya ilə ABŞ və Rusiya ilə Ukrayna arasında ikitərəfli əlaqələri, eləcə də mənbələrin gərgin adlandırdığı üçtərəfli müzakirələri əhatə edib. RF nümayəndə heyətinə Rusiya Prezidentinin köməkçisi Vladimir Medinski, Ukrayna nümayəndə heyətinə Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov başçılıq ediblər. Amerika tərəfini isə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff və digər vasitəçilər təmsil ediblər. Danışıqların ikinci günü Əbu-Dabidə keçirilən əvvəlki raundlarla müqayisədə daha geniş məsələlərin müzakirəsinə həsr olunub.

Proses iştirakçılarının sözlərinə görə, tərəflər humanitar məsələləri, təhlükəsizlik zəmanətlərini, mümkün həllin siyasi parametrlərini, eləcə də bir sıra ərazi və iqtisadi aspektləri müzakirə ediblər. ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff Vaşinqtonun səyləri sayəsində əhəmiyyətli irəliləyiş əldə edildiyini bildirib. Tərəflər liderlərinə məlumat verməak və razılaşma üzərində işləməyə davam etmək barədə razılığa gəliblər. Bir neçə Qərb mediası isə danışıqlar prosesini mürəkkəb və mübahisəli hesab edib. Almaniya, Fransa, Böyük Britaniya və İtaliyadan olan nümayəndələr də Cenevrədə ayrıca məsləhətləşmələr aparıblar, lakin əsas danışıqlar formatına daxil edilməyiblər.

Növbəti üçtərəfli görüşün fevralın 26-da keçirilməsi qərara alınsa da, sonradan martın əvvəlinə kimi təxirə salınmışdı. Lakin bu da baş vermədi. ABŞ-ın İranla müharibəyə başlaması danışıqlar prosesinin gələcəyini sual altına qoyub. Bugünlərdə Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) rəhbəri Con Retkliff Senatın kəşfiyyat komitəsindəki dinləmələr zamanı "ABŞ İrandakı eskalasiyaya baxmayaraq, Rusiya ilə qarşıdurma şəraitində Ukraynanı bundan sonra da dəstəkləmək niyyətindədir" desə də, reallıq ortadadır. Təsadüfi deyil ki, Kremlin sözçüsü Dmitri Peskov "İzvestiya" qəzetinə açıqlamasında Rusiya və Ukrayna arasında Birləşmiş Ştatların vasitəçi qismində iştirakı ilə üçtərəfli danışıqlar prosesinin dayandırıldığını bildirib. O deyib ki, Rusiya Prezidentinin xarici dövlətlərlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Kirill Dmitriyev ikitərəfli Rusiya-Amerika qrupu formatında öz fəaliyyətini dayandırmayıb: "Kirill Dmitriyev işləməyə davam edir. Üçtərəfli qrup isə fasilə verib".

### Peskov: Üçtərəfli qrup fasilə verib

Hazırda ABŞ-ın əsas diqqətinin İrana yönəlməsi rəsmi Kiyevi və onun müttəfiqlərini ciddi narahat edir. Kiyev problemin beynəlxalq birliyin gündəmindən düşməməsinə çalışır. Prezident Volodimir Zelenski deyib ki, Ukrayna və ABŞ komandaları sanksiya siyasəti və təhlükəsizlik zəmanətləri ilə bağlı fəal məsləhətləşmələr aparırlar. Lakin əsas məsələlərin həlli üçün iki prezident arasında şəxsi görüş zəruridir. Zelenskinin sözlərinə görə, komandalar sanksiya təzyiqi də daxil olmaqla, geniş məsələləri müzakirə edirlər. Prezident qeyd edib ki, Trampla Rusiyaya qarşı sanksiyaları və ya ABŞ məhdudiyyətlərinin yumşaldılmasını müzakirə etməyib. Bununla belə, o, ABŞ lideri ilə birbaşa əlaqəyə ehtiyac olduğunu deyib. Zelenskinin nə deməsindən asılı olmayaraq, Vaşinqtonun Rusiya neftinin ixracına məhdudiyyəti aradan qaldırması Moskva üçün olduqca əlverişlidir.

Avropa İttifaqı (Aİ) da Ukrayna probleminin həllinin beynəlxalq gündəmdən çıxmamasının tərəfdarıdır. Ukraynadakı vəziyyətlə bağlı gələcək müzakirələrdən danışan Aİ-nin ali nümayəndəsi Kallas Yaxın Şərqə olan diqqətin Ukraynadakı vəziyyətdən yayındırmamasının vacibliyini vurğulayıb. "ABŞ-ın Rusiya neftinin tədarükü ilə bağlı sanksiyaların yumşaldılması arzuolunmaz presedent yarada bilər, çünki indiki vəziyyətdə Rusiyanın müharibəni davam etdirmək üçün maliyyə resurslarını məhdudlaşdırmaq vacibdir. Hörmüz boğazının bağlanması da Rusiyanın xeyrinə olmaqla ona bu müharibəni maliyyələşdirməyə imkan verir" - deyə, o bəyan edib.

Belə bir şəraitdə rəsmi Ankara yenidən sülh üçün tərəflər arasında vasitəçilik etməyə hazır olduğunu bəyan edib. Türkiyənin xarici işlər naziri Hakan Fidan deyib ki, ABŞ və İsrailin İrana qarşı müharibəsi Rusiya-Ukrayna münaqişəsinin həlli üçün sülh prosesinə təsir etməməlidir. "Müzakirələrin növbəti raundu üçün Türkiyə ev sahibliyi etməyə hazırdır",- deyə H. Fidan bildirib və Rusiyanın xarici işlər naziri Sergey Lavrovla keçirilən son telefon danışığını xatırladıb: "Söhbət zamanı Moskva ilə Kiyev arasında sülhün əldə olunması istiqamətində fikir mübadiləsi aparılıb". Xatırladaq ki, müharibənin başladığı ilk vaxtlardan regionun ən güclü dövlətlərindən biri olan Türkiyə sülh naminə tərəflər üçün vasitəçilik və danışıqlara ev sahibliyi edib. Ankaranın vasitəçiliyi müəyyən qədər müsbət nəticələr verib. Ona görə də, Türkiyənin təşəbbüsləri bundan sonra da effekt verə bilər.



### Zelenskinin reytinqi yüksəlib

Türkiyədən fərqli olaraq, ABŞ Ukraynanı ərazi güzəştlərinə məcbur etməyə çalışır. Kiyevə təzyiq məqsədilə Vaşinqton Ukraynada prezident seçkilərinin keçirilməsini də gündəmə gətirib. Kiyev seçkilərin keçirilməsinə hazır olduğunu bəyan etsə də, bunun üçün təhlükəsizlik zəmanəti istəyir. Moskva və Vaşinqton prezident seçkiləri nəticəsində Zelenskinin hakimiyyətdən gedəcəyini düşünsə də, rəy sorğuları bunun əksini göstərir. Belə ki, Ukrayna Prezidenti Volodimir Zelenskiyə etimad səviyyəsi fevral ayı ilə müqayisədə 9 faiz artıb. Mart ayının əvvəlində respondentlərin 62 faizi onu dəstəkləyib. Bu faktlar Kiyev Beynəlxalq Sosiologiya İnstitutunun (KIIS) sorğusunun nəticələrində özünü göstərir.

Zelenskiyə etibar edən vətəndaşların 62 faizindən 28 faizi Prezidentə "tam" etimad göstərir, əksəriyyəti (34 faiz) isə ona "daha çox" etibar edir. Lakin respondentlərin 32 faizi ona etimad göstərmir.

***N.BAYRAMLI***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Novruzun nəfəsi!

## Baharın, bərəkətin və yeni başlanğıcların bayramı...




*Yeganə BAYRAMOVA*

Bu gün minilliklərin yaddaşından süzülüb gələn, milli kimliyimizin canlı ifadələrindən biri olan Novruz axşamıdır. Təbiətin oyanışı, torpağın canlanması və həyatın yenidən başlanğıcı məhz bu bayramda öz əksini tapır. Novruzun ən gözəl cəhətlərindən biri onun insanları bir araya gətirməsidir. Hər evdə qurulan bayram süfrəsi, səməni, müxtəlif şirniyyatlar və ailəvi birlik - bunlar sadəcə adət deyil, xalqımızın ruhumuzun bir parçasıdır. Paxlava, şəkərbura, qoğal kimi təamlar təkcə dad yox, həm də tarix daşıyır. Hər biri özlüyündə bolluq, bərəkət və firavanlıq rəmzidir.

Bayram öncəsi qeyd olunan dörd çərşənbə - Su, Od, Yel və Torpaq çərşənbələri isə insanla təbiət arasında olan qədim bağın simvoludur. Xüsusilə, tonqal qalayıb üzərindən tullanmaq adəti insanların bütün ağırlıqlardan, pis enerjidən təmizlənmək istəyini ifadə edir. Bu ənənə əsrlər keçsə də, bu gün də sevə-sevə yaşadılır.

Vaxtilə milli-mənəvi dəyərlərimizin, dini, milli adət və ənənələrimizin öyrənilməsinə və təbliğinə müəyyən qədər qadağaların qoyulmasına rəğmən xalqımız öz tarixi-mədəni irsini qoruyub saxlaya bilib. Azərbaycan azad, müstəqil dövlətə çevrildikdən sonra xalqımızın bu və ya digər dəyərlərinə xüsusi olaraq diqqət yetirilməyə başlanıldı.

Qeyd edək ki, UNESCO tərəfindən Novruzun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun beynəlxalq miqyasda da tanındığını göstərir. Bu gün Novruz yalnız Azərbaycanda deyil, bir çox ölkələrdə qeyd olunur və xalqlar arasında mədəni körpü rolunu oynayır.

Azərbaycan xalqı Novruzu xüsusi qürur və sevinc hissi ilə qeyd edir. Ən önəmlisi isə odur ki, bu bayram artıq ərazi bütövlüyü təmin edilmiş, suveren Azərbaycanda - illərlə həsrətində olduğumuz azad torpaqlarımızda da geniş şəkildə qeyd olunur.

Uzun illər işğal altında qalan və bu gün azadlığına qovuşan Qarabağ və Şərqi Zəngəzur bölgələrində Novruz tonqalları alovlanır, bayram süfrələri açılır, milli adətlərimiz yenidən canlandırılır. Bu torpaqlarda yandırılan hər tonqal yalnız baharın gəlişini deyil, həm də qələbənin, qayıdışın və dirçəlişin rəmzinə çevrilib.

Artıq illər sonra doğma yurdlarına qayıdan insanlar Novruzu öz evlərində qarşılayır, ata-baba ocaqlarında səməni yetişdirir, uşaqlar bayramın sevincini yaşayır. Bu mənzərə təkcə bayram ab-havası deyil, həm də xalqımızın sarsılmaz iradəsinin və milli birliyinin bariz nümunəsidir.

# Mərhəmət, paylaşmaq və mənəvi yenilənmənin zirvəsi!

## Ramazan humanizm və bərabərlik bayramıdır...

*Yeganə BAYRAMOVA*



Bu gün dünyanın hər yerində müsəlmanlar müqəddəs Ramazan ayının bitməsini, “orucluq ayı”nın başa çatmasını bayram edirlər. Ramazan bərəkət, rəhmət, günahlardan təmizlənmə ayıdır. Ramazan üç fəzilətli ayın sonuncusudur.

Bu ayın Allah yanında qiyməti o qədər böyükdür ki, min illərdir işığına yol getdiyimiz dörd müqəddəs kitabını “Zəbur”u, “Tövrat”ı “İncil”i və “Quran”ı Allah on bir ayın sultanı sayılan bu şərafətli ayda nazil edib.

Ramazan bayramı mənəviyyat, bərabərlik, birlik bayramıdır. Əslində, insanlar düşüncələrinin, iradələrinin hisslərinə, nəfslərinə qalib gəldiklərini bayram edirlər. Ramazanda insanlar aclıqla, yuxusuzluqla, hətta gözü, könlü toxluqla da sınağa çəkilirlər. Ramazan, eyni zamanda, könlünə, nəfsinə toxluq verməyin, ruhun cism üzərində qələbəsinin bayramıdır. Bu ayın fəzilətlərini İslam Peyğəmbəri Həzrət Məhəmməd belə qiymətləndirib: “Allah yanında ən gözəl ay olan mübarək Ramazan ayının günləri və gecələri o qədər üstündür ki, hətta oruc tutan adamın nəfəs çəkməyi, yatmağı belə zikr, ibadət sayılır. Bu ayda edilən dualar və ibadətlər məqbul, hacətlər müstəcəb olur”.

Ramazan ayının tamamlanması ilə gələn Ramazan bayramı yalnız təqvimdə bir tarix deyil, insan ruhunun saflaşmasının, səbrin və mərhəmətin təntənəsidir. Bir ay boyunca tutulan oruclar, edilən dualar və göstərilən yardımlar bu müqəddəs günlərdə ən gözəl bəhrəsini verir.

Ramazan bayramı insanların bir-birinə daha da yaxınlaşdığı, qəlblərin yumşaldığı xüsusi bir zamandır. Bu günlərdə evlərdə bayram süfrələri açılır, böyüklər ziyarət olunur, kiçiklər sevindirilir. Ən əsası isə ehtiyacı olanlara əl uzatmaq, paylaşmaq və sevincə ortaq olmaq bayramın ruhunu yaşadır.

Bu bayram həm də sosial bərabərliyin simvoludur. İmkanı olanlar fitrə zəkatı verərək aztəminatlı ailələrin də bayram sevincini yaşamalarına şərait yaradır. Bütün bunlar cəmiyyət daxilində həmrəyliyin və qarşılıqlı dəstəyin ən gözəl nümunəsidir.

Ramazan bayramı bizə xatırladır ki, insanın həqiqi zənginliyi maddi deyil, mənəvi dəyərlərdə gizlənir. Sevgi, mərhəmət, anlayış və paylaşmaq hissi - bütün bunlar müqəddəs Ramazanın bizə bəxş etdiyi ən böyük qazancdır...

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Əməkdar incəsənət xadimi Baba Vəziroğluna bacısı

**GÜNDÜZ MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.





**“Səhliyalı” şirkətinin kollektivi Azərbaycan xalqını**

**Ramazan və Novruz bayramları**

**münasibəti ilə təbrik edir. Artıq əziz bayramlarımız ölkəmizin bütün regionlarında qeyd olunur, azad Qarabağda da Novruz tonqalları yandırılır, Ramazan duaları edilir.
Qoy süfrələriniz hər zaman bərəkətli, duz-çörəkli olsun,
Azərbaycan xalqı həmişə sülh, xoşbəxtlik içində yaşasın! Amin!**

**Kollektiv adından şirkətin direktoru: Nəcməddin Bəşirov**

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5106**
**Sifariş: 382**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova